

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 31 (873) ■ 16 avqust 2017 | www.vergiler.az | Qiyməti: 60 qəp.


# Paytaxtın keçmiş «Sovetski» ərazisində yeni yolların açılışı olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 9-da Bakının Yasamal rayonunun keçmiş «Sovetski» ərazisində yenidən qurulan «Statistika» dairəsinin, Nəriman Nərimanov prospektinin və Abdulla Şaiq küçəsinin açılışında iştirak edib.**



Prezident İlham Əliyev yolların texniki göstəricilərini əks etdirən stendlərə baxıb. «Azəravtoyol» Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov dövlət başçısına Bakı şəhərinin keçmiş «Sovetski» ərazisində yeni yolların çəkilməsi, yaşıllaşdırma və abadlıq işlərinin aparılması» layihəsi çərçivəsində görülən işlər barədə ətraflı məlumat verib.

Bildirilib ki, 2016-cı ilin avqustundan icrasına başlanan layihəyə uyğun olaraq 26 hektar ərazidə yolların salınması və abadlıq işlərinin aparılması həyata keçirilib. İşlər yüksək keyfiyyətlə, texnoloji ardıcıllığa uyğun, həm də maksimum qısa müddətdə icra olunub. Buraya 23 hektar sahədə yaşıllaşdırma və abadlıq işlərinin, 3 hektar sahədə isə avtomobil yollarının tikintisi işləri daxildir. Ümumi uzunluğu 7 kilometrdən çox olan Nəriman Nərimanov prospekti, Abdulla Şaiq, Bababa Məcidov, Mirzəağa Əliyev və Füzuli küçələrinin yenidən qurulması artıq yekunlaşıb.

Nəriman Nərimanov prospektinin yenidən qurulması zamanı hərəkət zolaqlarının sayı 4-ə çatdırılıb. Abdulla Şaiq küçəsi isə 3 hərəkət zolağından ibarətdir. Layihə çərçivəsində 169 yol nişanı quraşdırılıb. Paytaxt əhəmiyyətli bu layihənin icrası zamanı su, kanalizasiya, yağış sularının axıdılması, qaz, rabitə, elektrik və digər yeraltı kommunikasiyaların tikintisi həyata keçirilib. 5,7 kilometr uzunluğunda drenaj xətti çəkilib, onun üzərində 149 quyu və uzunluğu 1,5 kilometr olan mərkəzi kanalizasiya kollektoru tikilib. Bundan əlavə, 2,6 kilometr uzunluğunda qaz xətti, 5,7 kilometrlik su xətti və abadlaşdırılmış ərazidə 510 metr uzunluğunda ehtiyat keçidlər inşa olunub. Yenidən qurulan yolların üzərində 9 yerdə avtobus dayanacağı quraşdırılıb, müasir işıqlandırma sistemi yaradılıb. Prospekt və küçələrdə fiziki qüsurlu insanların da rahat hərəkəti üçün pandusları qurulub.

Prezident İlham Əliyev yeni yolların rəmzi açılışını bildirən lenti kəsib.

Sonra xatirə şəkli çəkdirilib.

Daha sonra Prezident İlham Əliyev yenidən qurulan «Statistika» dairəsində görülən işlərlə tanış olub. Azərbaycanın dövlət başçısı burada Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan Mikayıl Müşfiqin abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.

Qeyd edək ki, yenidənqurma işlərinin ən əhəmiyyətli hissəsi Dövlət Statistika Komitəsinin qarşısında yerləşən dairənin ləğv olunmasıdır. Bu, hərəkətin intensivliyinin və təhlükəsizliyinin təmin olunmasına geniş imkanlar açıb. İndi həmin yerdə yaşıllıq zolağı salınıb.

Keçmiş «Sovetski» adlanan ərazidə yeni yolların çəkilməsi ilə bağlı görülən işlər Bakının yol-nəqliyyat infrastrukturunun müasir səviyyədə qurulmasında xüsusi əhəmiyyət kəsb edir. Füzuli küçəsindəki parkla Akademik Milli Dram Teatrının arxasında yaradılacaq parkın əlaqələndirilməsi, Füzuli meydanındakı dairədə hərəkətin bağlanması, həmçinin Mirzəağa Əliyev və Füzuli küçələrindən istifadə etməklə Səməd Vurğun küçəsi və Nəriman Nərimanov prospekti arasında nəqliyyatın fasiləsiz və təhlükəsiz hərəkəti təmin olunub. Ümumilikdə yenidən qurulan prospekt və küçələr boyunca 6 min kvadratmetrdən çox ərazidə yaşıllıq salınıb və suvarma sistemi qurulub. Bununla yanaşı, Nəriman Nərimanovun heykəlinin ətrafındakı olduqca sərt sola dönmə də ləğv edilib və bir qədər irəlidə - Nəriman Nərimanov prospektində dairə tipli yeni yol qovşağı tikilib. Yaxın vaxtlarda piyadaların təhlükəsiz hərəkəti üçün Təzəpir məscidinin qarşısındakı sahədə yeni piyada keçidinin tikilməsi, habelə burada 360 yerlik avtomobil dayanacağının salınması nəzərdə tutulub.

**Yenidən qurulan prospekt və küçələr boyunca 6 min kvadratmetrdən çox ərazidə yaşıllıq salınıb və suvarma sistemi qurulub**

## «Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017–2021-ci illər üçün Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq, tütünçülüyün inkişaf etdirilməsi, tütün emalı sahəsinin dərinləşdirilməsi, bu sahədə fəaliyyət göstərən emal müəssisələrinin xammala olan tələbatının yerli məhsul istehsalı hesabına təmin olunması, gəlirliliyin və ixrac potensialının artırılması, kənd əhalisinin məşğulluğunun yüksəldilməsi məqsədi ilə **qərara alıram:**

1. «Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı» təsdiq edilsin.

2. Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Maliyyə və İqtisadiyyat nazirlikləri, müvafiq olaraq, hər il dövlət büdcəsinin və dövlət investisiya proqramının tərtibi proseslərində maliyyə vəsaitinin nəzərdə tutulması üçün zəruri tədbirlər görsünlər.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ölkədə beynəlxalq standartlara uyğun tütün məmulatı istehsal edən müasir zavodun tikilməsi məqsədilə texniki-iqtisadi əsaslandırmanın hazırlanması üçün müvafiq tədbirlər görsün.

4. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi məhsul istehsalçılarının kənd təsərrüfatı texnikası və aqrokimyəvi vasitələrlə təmin edilməsi, seleksiya və toxumçuluq işlərinin, fitosanitar və informasiya-məsləhət xidmətlərinin gücləndirilməsi ilə bağlı zəruri tədbirlər görsün.

5. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə:

5.1. Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirsin;

5.2. Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrası barədə ildə bir dəfədən az olmayaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 10 avqust 2017-ci il.

## Yüngül atletika üzrə dünya çempionu Ramil Quliyevə

Əziz Ramil.

İlk növbədə səni yüngül atletika üzrə dünya çempionu adını qazanmağın münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Qeyd etmək istərdim ki, tarixdə ilk dəfə olaraq azərbaycanlı idmançı yüngül atletika üzrə dünya çempionu olub. Xüsusilə sevindirici haldır ki, sən qələbədən sonra Azərbaycan və Türkiyə bayraqlarını qaldırdın. Bu, onu göstərir ki, sən öz xalqına bağlı, vətənpərvər insansan.

Sən bu gün Türkiyəni təmsil edirsən. Ancaq idmanda ilk addımlarını Azərbaycanda atmısan.

Bu qələbə münasibətilə Türkiyəni də təbrik edirəm. Sənin qələbən, eyni zamanda, Azərbaycan-Türkiyə dostluğu və qardaşlığının növbəti təzahürüdür. Biz Azərbaycanda səninlə fəxr edirik.

Sənə idmanda yeni qələbələr arzulayıram.

**İlham ƏLİYEV**
***Azərbaycan Respublikasının Prezidenti***

11 avqust 2017-ci il.

# Azərbaycan Prezidenti İlham Əliyev Belarus Dövlət Sərhəd Komitəsinin sədrini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 9-da Belarus Respublikası Dövlət Sərhəd Komitəsinin sədri Anatoli Lapponu qəbul edib.

Anatoli Lappo Bakıda 1990-cı ildə olduğunu qeyd edərək paytaxtımıza budəfəki səfəri zamanı inanılmaz dərəcədə inkişaf gördüyünü deyib. O, sərhədçi olaraq öz xidmətinə Naxçıvanda zastava rəisi kimi başladığını məmnunluqla vurğulayaraq deyib: «Mən Naxçıvanda zastava rəisi vəzifəsində çalışarkən Azərbaycanın əfsanəvi oğlu Heydər Əliyevlə bir neçə dəfə görüşmək şərəfinə nail olmuşam və o illəri xoş təəssüratla xatırlayıram».

Prezident İlham Əliyev xoş sözlərə görə məmnunluğunu ifadə edib. Dövlətimizin başçısı ötən dövr ərzində Naxçıvanda böyük inkişaf proseslərinin getdiyini vurğulayaraq, qonağın ölkəmizə bu səfərinin onun xidmət etdiyi yerləri yenidən görmək üçün yaxşı imkan yaratdığını bildirib.

Görüşdə Azərbaycan-Belarus ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb, iki dövlətin sərhəd xidmətləri arasında əməkdaşlığın əlaqələrimizin daha da möhkəmləndirilməsi işinə töhfə verdiyi bildirilib.

# Azərbaycan Respublikasında mədəniyyət sahəsinin inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycanın zəngin və tolerant tarixi irsinin, tarix və mədəniyyət abidələrinin tədqiqi, qorunması və təbliği üçün ölkədə sistemli fəaliyyət həyata keçirilir.

Son illər ərzində mədəniyyət sahəsində böyük investisiya proqramları həyata keçirilmiş, paytaxtda və regionlarda bir sıra mədəniyyət mərkəzləri, teatr binaları, konsert-tamaşa salonları, rəsm qalereyaları tikilib istifadəyə verilmiş, habelə mövcud obyektlərin müasir standartlara uyğun təmiri, maddi-texniki bazasının gücləndirilməsi, muzey fondlarının komplektləşdirilməsi və ekspozisiyaların zənginləşdirilməsi istiqamətində bir sıra işlər görülmüşdür.

Bu sahəyə dövlətin xüsusi qayğısının nəticəsidir ki, milli-mənəvi dəyərlərimizdən olan Novruz bayramı, muğam və aşıq sənətləri, eləcə də xalça sənəti UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə reprezentativ siyahısına daxil edilmiş, ölkəmiz qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəyə üzv seçilmişdir. Bundan başqa, Azərbaycanın möhtəşəm abidələri Qobustan Milli Tarixi-Bədii Qoruğu və «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu UNESCO-nun Ümumdünya İrsi Siyahısına daxil edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, mədəniyyət sahəsinə dövlət qayğısının gücləndirilməsi, mədəniyyət obyektlərinin tikintisi və təmiri işlərinin davam etdirilməsi, habelə bərpa-tamamlama işlərinin sürətləndirilməsi məqsədi ilə **qərara alıram:**

1. «Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi barədə» Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 dekabr tarixli 1180 nömrəli Fərmanının 1.14.3.3.9-cu yarımbəndində nəzərdə tutulmuş vəsaitdən Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə 6,987 milyon (altı milyon doqquz yüz səksən yeddi min) manat, o cümlədən:

1.1. Bakı şəhəri Sabunçu rayonunun Maştağa qəsəbəsində yerləşən H.Abbasov adına Mədəniyyət Mərkəzinin tikintisinin və təchizatının tamamlanması üçün 1,272 milyon (bir milyon iki yüz yetmiş iki min) manat;

1.2. Bakı şəhəri Qaradağ rayonunun Qızıldaş qəsəbəsində yerləşən Mədəniyyət Mərkəzinin tikintisinin və təchizatının tamamlanması üçün 1,932 milyon (bir milyon doqquz yüz otuz iki min) manat;

1.3. Bakı şəhəri Xəzər rayonunun Şağan qəsəbəsində yerləşən Mədəniyyət Mərkəzinin tikintisinin və təchizatının tamamlanması üçün 1,208 milyon (bir milyon iki yüz səkkiz min) manat;

1.4. Bakı şəhərinin Nərimanov rayonunda yerləşən 21 nömrəli Musiqi Məktəbinin tikintisinin və təchizatının tamamlanması üçün 1,370 milyon (bir milyon üç yüz yetmiş min) manat;

1.5. Bərdə şəhərində yerləşən «Allah-Allah» türbəsinin bərpası işlərinin tamamlanması üçün 1,205 milyon (bir milyon iki yüz beş min) manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 14 avqust 2017-ci il

## BU NÖMRƏMİZDƏ


VERGİ UÇOTUNDAN YAYINMA HALLARININ QARŞISI ALINIB — 2

«VERGİ ÖDƏYİCİLƏRİNƏ YANAŞMA DƏYİŞİR» — 3

QANUNSUZ SAHİBKARLIQLA MÜBARİZƏDƏ CƏMİYYƏT FƏAL OLMALIDIR — 4

AQRAR SAHƏNİN İNKİŞAFI PRİORİTET HESAB OLUNUR — 5

# Vergi uçotundan yayınma hallarının qarşısı alınıb

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, 2017-ci ilin aprel ayının 1-dən sahibkarlıq subyektləri arasında mal, iş və xidmətlər üzrə əməliyyatların rəsmiləşdirilməsi zamanı elektron qaimə-fakturalar tətbiq edilir. «Nağdsız hesablaşmalar haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi, elektron qaimə-fakturaların tətbiqi, əməliyyatların şəffaflaşdırılması və vergi uçotunun bərpasını nəzərdə tutan dəyişikliklərlə bağlı vergi ödəyiciləri arasında geniş məlumatlandırma işləri aparıb və görüşlər keçirilib. Bunlarla yanaşı, vergi qanunvericiliyinin tələblərinə əməl edilməsi vəziyyətinin nəzarətdə saxlanılması üçün Vergilər Nazirliyində yaradılmış müvafiq məlumat bazalarında dəyişikliklərlə əlaqədar məlumatlar mütəmadi olaraq araşdırılır, riskli vergi ödəyiciləri müəyyən edilir və həmin vergi ödəyiciləri üzrə nəzarət tədbirləri həyata keçirilir.

Vergilər Nazirliyinin iyul ayı ərzində həyata keçirdiyi araşdırmalar zamanı vergi ödəyiciləri tərəfindən aparılan əməliyyatlarda kifayət qədər risklərin yaranması halları aşkar edilib. Bəzi vergi ödəyiciləri tərəfindən təqdim edilmiş mallara (işlərə, xidmətlərə) görə elektron qaimə-fakturaların verilmədiyi, malların (işlərin, xidmətlərin) satılmasına baxmayaraq, həmin əməliyyatlara görə vergilərin dövlət büdcəsinə ödənilmədiyi, satışdan əldə edilmiş pul vəsaitlərinin uçota alınmadığı, «Nağdsız hesablaşmalar haqqında» Qanunun tələblərinə əməl edilmədiyi və bir sıra pozuntulara yol verildiyi müəyyən edilib. Bəzi hallarda isə vergi ödəyiciləri heç bir təsərrüfat subyekti (anbarı, mağazası və s.) olmadığı halda, aldıqları (idxal etdikləri) malların satışını vergiyə cəlb etməyərək, həmin malları «mal qalığı» kimi göstərirlər.

Qeyd olunanlarla əlaqədar, Vergilər Nazirliyi yanında Lokal Vergilər Departamenti tərəfindən Bakı şəhərində fəaliyyət göstərən bir neçə riskli vergi ödəyicilərində malların elektron qaimə-faktura tətbiq etməklə həyata keçirilməsi, malların və pul vəsaitinin uçotdan gizlədilməsi və ya uçota alınmaması, eləcə də nağdsız hesablaşmaların həyata keçirilməsi ilə bağlı qanunla müəyyən olunmuş tələblərə əməl olunması kimi hallara nəzarət etmək məqsədi ilə operativ vergi nəzarəti həyata keçirilib.

Bu ilin iyul ayı ərzində həyata keçirilmiş nəzarət tədbirləri nəticəsində ümumilikdə 10 milyon 529 min manat dəyərində mal-materialın əskik gəldiyi (mövcud olmadığı), başqa sözlə desək, vergi ödəyiciləri tərəfindən satılmasına baxmayaraq, satışdan əldə olunan gəlirin müvafiq vergi bəyannamələrində əks etdirilmədiyi və vergidən yayındırıldığı, 885,2 min manat məbləğində mal-materialın isə uçotsuz, yəni sənədsiz olduğu müəyyən edilib.

Yoxlamalar nəticəsində dövlət büdcəsindən yayındırılmış 1 milyon 916 min manat məbləğində ƏDV-nin vergi bəyannamələrində bərpa edilməsi üçün müvafiq tədbirlər görülüb.

Vergilər Nazirliyi xəbərdarlıq edir ki, maliyyə sanksiyalarına və cərimələrə məruz qalmamaq üçün vergi ödəyiciləri şəffaf vergi uçotunun qurulmasını, malların (işlərin, xidmətlərin) alış və satışının qanunvericiliyin tələblərinə uyğun rəsmiləşdirilməsini və «Nağdsız hesablaşmalar haqqında» Qanunun tələblərinə ciddi əməl olunmasını təmin etməlidirlər.

# Qarşılıqlı əməkdaşlıq haqqında protokol imzalanıb

Avqustun 10-da Vergilər Nazirliyinin Tədris Mərkəzi ilə Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində «Elektron Hökumət Təlim-Tədris Mərkəzi» MMC arasında əməkdaşlıq haqqında niyyət protokolu imzalanıb. Protokol tərəflər arasında əsas fəaliyyət istiqamətləri üzrə birgə təlim, seminar və digər tədbirlərin keçirilməsi, mütəxəssislərin mübadiləsi, elmi-tədqiqat işlərinin aparılması, metodiki dəstək və digər sahələr üzrə qarşılıqlı əməkdaşlıq əlaqələrinin yaradılması və inkişafı məqsədi ilə imzalanmışdır.

Niyyət protokolu üzrə birgə fəaliyyət aşağıdakı əməkdaşlıq istiqamətlərini əhatə edir:

- Tərəflərin əsas fəaliyyət sahələri üzrə perspektiv inkişaf istiqamətlərini müəyyən etmək və tərəflər üçün maraq kəsb edən sahələr üzrə elmi və metodiki əməkdaşlığın əsasını qoymaq;
- Tərəflərin birgə təşkilatçılığı və dəstəyi ilə vergi, informasiya-kommunikasiya və yüksək texnologiyalar, eləcə də «Elektron hökümət» sahələri üzrə birgə maarifləndirici tədbirlər, təlim və seminarlar keçirmək;
- Qarşılıqlı təbliğat və təşviqat işləri aparmaq və tərəflərin birgə iştirakı ilə həyata keçirilən layihələr haqqında ictimaiyyəti məlumatlandırmaq;
- Əlaqəli sahələr üzrə birgə tədris proqramları hazırlamaq və tədris kursları keçirmək;
- Tərəflərin iştirakı və təşkilatçılığı ilə yerli və beynəlxalq əhəmiyyətli tədbirlər, o cümlədən seminar, konfrans, simpozium və sərgilər keçirmək;
- Vergi qanunvericiliyi və vergilər üzrə elektron idarəçilik, «Elektron hökumət», elektron dövlət xidmətləri və sahibkarlığın inkişafı mövzularında vergi ödəyiciləri arasında maarifləndirmə işini birgə təşkil etmək;
- Tərəflərdən birinin təşkil etdiyi təlimlər üçün digər tərəfdən ödənişli əsaslarla müəllimlər cəlb etmək;
- Tərəflərdən birinin təşkil etdiyi təlimlərdə digər tərəfin əməkdaşlarının iştirakını təmin etmək;
- Tərəflərin birgə dəstəyi ilə elektron dərsliklər hazırlamaq;
- Tərəflərin inzibati və texnoloji infrastrukturundan, o cümlədən təhsil informasiya resurslarından qarşılıqlı razılaşma əsasında istifadə etmək;
- Qabaqcıl metodikaların, elmi nəticələrin, aparılan tədqiqatlar barədə materialların və digər nəşrlərin qarşılıqlı mübadiləsini təmin etmək;
- Birgə tədbirlər, layihələr və tədris proqramları təşkil etmək məqsədilə potensial tərəfdaş təşkilatlar və şəxslər üçün əlaqələndirici rolunu oynamaq.

Niyyət protokolunu Vergilər Nazirliyinin Tədris Mərkəzinin rəisi Əli Həsənov və Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində «Elektron Hökumət Təlim-Tədris Mərkəzi» MMC-nin direktor vəzifəsini icra edən Rauf Cabarov imzalayıb.

Sənəd çərçivəsində ilk tədbir imzalanma günü olub, «Elektron Hökumət Təlim-Tədris Mərkəzi» MMC-nin direktor vəzifəsinin icraçısı Rauf Cabarov dövlət vergi orqanları əməkdaşları üçün Tədris Mərkəzində «Exell-in məlumat axtarış sistemi və bu məlumatların səmərəli istifadəsi üzrə funksionallığın öyrənilməsi ilə əlaqədar V Lookup funksiyası» mövzusunda məruzə ilə çıxış edib.

**Fəxriyyə İKRAMQIZI**

# Şəffaf vergi ödəyicilərinin sıraları genişlənir

Bu ilin əvvəlindən «Yaşıl dəhliz» prinsipi ilə şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərən vergi ödəyiciləri üçün fərdi və sürətli xidmətlərin göstərilməsi həyata keçirilir. «Yaşıl dəhliz» layihəsinin tətbiqinin ölkədə investisiya və biznes mühitinin yaxşılaşdırılmasına, könüllü vergi əməletməsinin artmasına və cəmiyyətdə vergi mədəniyyətinin yüksəlməsinə səbəb olacağı düşünülür.

Partnyor ödəyicilərə ərazi məhdudiyyəti nəzərə alınmadan xidmət göstərilir. Bunlara bir sıra ənənəvi xidmətlərlə yanaşı, İKT-nin son nailiyyətlərinə əsaslanan innovativ xidmətlər də aiddir. Məsələn: videobağlantılar, çağrı və xidmət mərkəzlərində partnyor ödəyicilərə növbəsiz və sürətli xidmətlərin göstərilməsi, partnyor ödəyicilərin müraciəti əsasında onlar üçün dəyirmi masa, seminar və konfransların təşkili, xüsusi təlim proqramlarının hazırlanması və s. Bunlarla yanaşı, partnyor ödəyicilər vergi qanunvericiliyi və inzibatçılığında baş verən dəyişikliklər və vergilərlə bağlı digər məsələlər barədə də məlumatlandırılırlar.

Koordinasiya işlərinin təşkili məqsədilə hər bir partnyor ödəyici üçün aidiyyəti vergi strukturundan kuratorlar ayrılıb. Kuratorlar partnyor ödəyicilərin müraciəti əsasında onlara ünvanlı xidmətlər göstərirlər.

«Yaşıl dəhliz»ə həm Vergilər Nazirliyinin, həm də vergi ödəyicisinin təşəbbüsü ilə qoşulmaq mümkündür. Vergi ödəyiciləri partnyor vergi ödəyicisi statusuna malik olmaq üçün bir sıra meyarlara cavab verməlidir. Belə ödəyicilər, ilk növbədə, vergi hesabatlarını vaxtlı-vaxtında təqdim etməli, vergiləri tam həcmdə və vaxtında ödəməli, işçilərinin sayını və onlara verilən əməkhaqlarını düzgün bəyan etməli, gücləndirilmiş elektron imzaya sahib olmalı, saxta sənədlər qəbul və təqdim etməməli, son 3 il ərzində iqtisadi sahədə cinayətin törədilməsinə görə barəsində cinayət təqibi aparılmamalı, mühasibat uçotunu beynəlxalq və ya milli uçot standartlarına uyğun, yazışmaları isə əsasən elektron şəkildə aparmalıdırlar. Vergilər Nazirliyi mütəmadi olaraq qeyd olunan meyarlara cavab verən vergi ödəyicilərini müəyyən edərək, onlara «Partnyor vergi ödəyicisi statusunun əldə edilməsi barədə» unikal koda malik bildiriş verir. Vergi ödəyicisi partnyor vergi ödəyicisi statusunun əldə olunması üçün vergi orqanlarına müraciət etdikdə, həmin müraciət vergi orqanlarının müvafiq struktur vahidi tərəfindən araşdırılır və vergi ödəyicisinin fəaliyyəti göstərilən meyarlara uyğun gəldiyi halda ona «Partnyor vergi ödəyicisi statusunun əldə edilməsi barədə» bildiriş verilir, uyğun gəlmədiyi halda isə onun fəaliyyətinin göstərilən meyarlara tam və ya qismən uyğun olmaması barədə məlumat çatdırılır.

Partnyor vergi ödəyicilərinin vergi qanunvericiliyinin tətbiqi, ziddiyyətli məqamların aydınlaşdırılması, fəaliyyəti üzrə həyata keçirilən vergi nəzarəti tədbirləri, vergi orqanları tərəfindən səlahiyyətləri daxilində göstərilən xidmətlər və digər məsələlərlə bağlı uçotda olduğu vergi orqanına etdiyi müraciətləri xüsusi nəzarətə götürülür, Vergi Məcəlləsinə və «İnzibati icraat haqqında» Qanuna uyğun olaraq müəyyən edilmiş müddətdən 3 dəfə az olmaqla baxılır. Partnyor ödəyicinin müraciətinə baxılması zamanı yaranan fikir ayrılıqlarına həmin vergi ödəyicinin iştirakı ilə Vergilər Nazirliyi tərəfindən vergi ödəyicisinin istəyinə uyğun olaraq vergi ödəyicisinin iş yerində və ya vergi orqanında baxılır, həmçinin İKT-nin imkanlarından istifadə etməklə, o cümlədən video bağlantı qurmaqla müzakirə edilir.

Partnyor vergi ödəyicisi statusunu aldıqdan sonra göstərilən meyarlara cavab verməyən ödəyici Vergilər Nazirliyi tərəfindən 1 ay müddətində həmin meyarlara cavab verməsi üçün lazımi tədbirlərin görülməsi məqsədilə məlumatlandırılır. Bu müddət bitdikdən sonra meyarlara cavab verməyən vergi ödəyicisinə «Partnyor vergi ödəyicisi statusunun ləğvi barədə» bildiriş təqdim olunur və onun statusu ləğv edilir.

Bu ilin əvvəlindən vergi orqanlarına partnyor ödəyici statusunun alınması üçün müraciət edən və ya təsdiq edilmiş qaydalarda göstərilən meyarlara uyğun olduğu müəyyən edilən 455 (o cümlədən Bakı şəhəri üzrə 200) vergi ödəyicisinə «Partnyor vergi ödəyicisi statusunun əldə edilməsi barədə» bildirişlər təqdim olunmuşdur. Yanvar-iyun ayları ərzində partnyor ödəyicilərə xidmət mərkəzlərində 231 xidmət göstərilmişdir. Vergi ödəyiciləri 1264 halda telefon vasitəsilə məlumatlandırma xidmətindən, 182 halda isə ünvanlı xidmətdən istifadə etmişdir. 499 partnyor vergi ödəyicisi vergi orqanları tərəfindən keçirilən tədbirlərdə iştirak etmiş, 2706 halda bildiriş təqdim olunmuş partnyor ödəyicilərin 45 yazılı müraciəti cavablandırılmış, onlara kitabça, buklet və s. nəşrlər təqdim edilmişdir.




Partnyor vergi ödəyicilərinin növbədənkənar qəbulu üçün respublika üzrə 50 xidmət mərkəzinin növbə terminalının proqram təminatında «Yaşıl dəhliz» adında seçim imkanı yaradılmış və bu sahədə işlər davam etdirilir. Bununla yanaşı, Çağrı Mərkəzinə zəng etdikdə partnyor ödəyicilərə sürətli xidmətin göstərilməsi məqsədilə səsli menyuda dəyişiklik edilərək xüsusi xətt vasitəsilə xidmətlərin göstərilməsi imkanı yaradılmışdır.

**Aytən NƏBİYEVA**

# Vergi siyasəti və qeyri-neft sənayesinin inkişafının stimullaşdırılması

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2017-ci ilin ilk 7 ayı ərzində Azərbaycanın sənaye sektorunda 21,8 milyard manatlıq sənaye məhsulu istehsal olunub, onun böyük hissəsi qeyri-neft sənayesi məhsullarının payına düşür. Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı ötən ilin eyni dövrü ilə müqayisədə 4,6% artıb, neft sənayesində isə 7,1% azalma baş verib. Qeyri-neft sənayesində yeyinti və içkilərin istehsalı 30%, toxuculuq sənayesi məhsullarının istehsalı 98,5%, geyim istehsalı 49%, tikinti materiallarının istehsalı 38,3%, kompüter və elektron məhsulların istehsalı 57,6%, maşın və avadanlıqların istehsalı 19,1% artıb. Həmin məhsulların 30%-dən çoxu xarici ölkələrə ixrac olunub.

İqtisadiyyat və sənaye nazirinin müavini Sahib Məmmədov bildirib ki, sənayeləşmə siyasətinə uyğun olaraq, qeyri-neft sənayesində idxalı əvəz edən, rəqabətqabiliyyətli və ixracyönümlü məhsullar istehsal edən müəssisələrin təşkilinə, sahibkarlığın inkişafına dövlət dəstəyi tədbirləri daha da gücləndirilib. Bu sahədə sənaye parkları və məhəllələrinin yaradılması xüsusi əhəmiyyət kəsb edir. Qeyri-neft sənayesinin inkişafına dair tədbirlər planının icrası sayəsində 2017-ci ilin birinci yarısında ölkədə 20-dən artıq sənaye müəssisəsi açılıb, onların sırasında tikinti materialları, kağız və karton, tekstil, rezin və plastmas məmulatlarının, qida məhsullarının istehsalı və digər sahələrdə müasir texnologiyalara əsaslanan, rəqabətqabiliyyətli və ixracyönümlü onlarla sənaye müəssisəsi fəaliyyətə başlayıb. Bununla yanaşı, mövcud sənaye müəssisələrinin istehsal gücləri genişləndirilib. Bölgələrdə sənaye zonaları və məhəllələrinin yaradılması prosesi davam etdirilir. Neftçala Sənaye Zonasında 3 müəssisə artıq fəaliyyətə başlayıb, daha 6 müəssisənin isə bu il fəaliyyətə başlaması nəzərdə tutulur. Masallı Sənaye Zonasına sahibkarlar tərəfindən dəyəri 33 milyon manatdan çox olan 33 layihə təqdim olunub, yaxın günlərdə infrastrukturun yaradılmasına başlanılacaq. Hazırda Ağdam, Ağstafa, Qazax və digər rayonlarda da sənaye zonalarının yaradılması imkanları araşdırılır.

Cari ilin ilk yeddi ayında qeyri-neft sənayesinə investisiya qoyuluşları da ötən ilin müvafiq dövrü ilə müqayisədə 5%-dən çox artıb. İl ərzində ölkə iqtisadiyyatına 5 milyard dollar həcmində investisiya yatırılıb, investisiya qoyuluşlarının təxminən 45%-i sənaye sahəsinə yönəldilib.

Qeyri-neft sənayesi məhsullarının istehsalı və ixracının artmasında vergi və gömrük güzəştləri, qeyri-neft ixracının stimullaşdırılması, investisiyaların təşviqinə dair yürüdülən siyasət öz mühüm təsirini göstərməkdədir. İndiyədək verilmiş 173 investisiya təşviqi sənədi üzrə təqdim edilmiş sənədlərin 63 faizi sənaye sahələrini əhatə edir. Hazırda investisiya təşviqi sənədi almış 83 müəssisə artıq fəaliyyət göstərir ki, onun 55-i qeyri-neft sənayesi sahələrinə aiddir. Ümumilikdə, 2-3 il ərzində təşviq sənədi əsasında qeyri-neft sənayesi sahələrinə 1,6 milyard manatlıq investisiya qoyuluşu nəzərdə tutulur. Bu layihələrin reallaşdırılması nəticəsində 11 mindən çox yeni iş yeri açılacaq.

Qeyi-neft sənayesi sektoruna xarici investorları cəlb etmək məqsədilə müxtəlif stimullaşdırıcı addımlar atılıb, vergi-gömrük, investisiya və digər güzəştlərin tətbiq olunması sayəsində xarici investorların, beynəlxalq maliyyə təşkilatlarının bu sahəyə marağı artıb. Dünya Bankı Balaxanı texnoparkı layihəsinə 47 milyon dollar investisiya qoymaq üçün Azərbaycan hökuməti ilə saziş imzalayıb. Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) yüksək texnologiyalar və sənaye parklarına investisiyalar yatırmaq üçün hökumətlə razılıq əldə edib. Cənubi Koreya, Sinqapur, Yaponiya, Türkiyə və digər ölkələrin investorları Azərbaycanda mineral və spirtli içkilər, tikinti, maşınqayırma və avadanlıqlar, emal, mədənçıxarma sənayesinə sərmayə qoymaq niyyətindədir.

Vergi yükünün aşağı salınması, stimullaşdırıcı vergi siyasətinin tətbiqi qeyri-neft sənayesində istehsalın canlanmasına və yeni iş yerlərinin yaranmasına təkan verib

Qeyri-neft sənayesinin inkişafına müsbət təsir edən əsas amil kimi səmərəli vergi siyasətinin həyata keçirilməsi də mühüm yer tutur. 2017-ci il yanvarın 1-dən qüvvəyə minən Vergi Məcəlləsinə əlavə və dəyişikliklərlə bağlı qanunun icrası regonlarda sənaye sektoru üzrə çalışan sahibkarlıq subyektlərinin fəaliyyətinin genişləndirilməsinə, onların yeni investisiya layihələrinin icrasına başlamasına səbəb olub. Vergi yükünün aşağı salınması, stimullaşdırıcı vergi siyasətinin tətbiqi qeyri-neft sənayesində istehsalın canlanmasına və yeni iş yerlərinin yaranmasına təkan verib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı bildirib ki, «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi»ndə əsas yer tutan sektorlardan biri qeyri-neft sənayesidir. Sənəddə qeyri-neft sənayesinin ixrac potensialının artırılması, rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi, regionların sənaye potensialının gücləndirilməsi, sənaye və texnologiyalar parklarının və sənaye məhəllələrinin yaradılması, elmtutumlu və innovativ istehsalın genişləndirilməsi ilə bağlı prioritetlər müəyyənləşib. Yaxın 5 il ərzində kiçik və orta biznesin inkişafı kontekstində sənayenin əsas sektorlarının inkişafına yönəldilən layihələrin həyata keçirilməsi nəzərdə tutulur: «Azərbaycanda sənayenin strukturunda mədənçıxarmanın payının azalması fonunda emal sənayesinin xüsusi çəkisi artmaqdadır. Əgər sənaye yüksəlişinin birinci mərhələsi karbohidrogen resurslarına əsaslanırdısa, indiki mərhələdə inkişaf iqtisadi səmərəliliyin üzərində qurulmalıdır. Azərbaycan yeni sənayeləşmə dövrünə qədəm qoyub. Bu mərhələnin əsas xüsusiyyətləri sənayenin regionlarda inkişafı, innovativlik və ətraf mühitə təsirlərin azaldılması, iqtisadiyyatın rəqabət qabiliyyətinin və sənaye ixracının artırılması və yeni iş yerlərinin açılmasıdır. «Milli iqtisadiyyatın strateji yol xəritəsi» ağır sənayenin başlıca istiqamətlərini müəyyənləşdirəcək».

**Elbrus CƏFƏRLİ**

# «Vergi ödəyicilərinə yanaşma dəyişir»



«İş dünyamız» jurnalı Azərbaycanın vergi sistemində baş verən dəyişikliklər, tətbiq edilən yeniliklər, onların məqsədi və dəyişikliklərin ilkin nəticələri ilə bağlı Vergilər nazirinin müavini İlkin Vəliyevin müsahibəsini dərc etmişdir.

***- İlkin müəllim, son iki ili digər sahələrdə olduğu kimi, vergi sahəsində də ciddi dəyişikliklər ili adlandırmaq olar. Bu dəyişikliklər nədən ibarətdir ?***

- İlk olaraq qeyd edim ki, vergi sahəsində son illər ərzində aparılan islahatlar ölkədə həyata keçirilən çoxşaxəli iqtisadi islahatların tərkib hissəsidir. Vergi iqtisadi alət olmaqla iqtisadiyyatın tənzimlənməsinə və inkişafına təsir edən mexanizmlərdən biridir. Buna görə də bu sahədəki islahatlar iqtisadi inkişafın sürətləndirilməsi üçün mühümdür.

Sahibkarlığın inkişafı və ölkənin yeni iqtisadi inkişaf fazasına keçməsi isə vergi sahəsində islahatların aparılmasına zərurət yaradıb. Prezident İlham Əliyevin 4 avqust 2016-cı il tarixli Sərəncamı ilə «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri» təsdiq edilib və Vergilər Nazirliyinə vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi ilə bağlı bir sıra tapşırıqlar verilib.

Vergi sahəsində aparılan islahatlar əlverişli sahibkarlıq və investisiya mühitinin yaradılması, vergi qanunvericiliyinin təkmilləşdirilməsi, vergitutmanın optimallaşdırılması, vergi yükünün azaldılması, vergi güzəştlərinin səmərəsinin artırılması, çevik vergi inzibatçılığının yaradılması, vergi nəzarətinin risk meyarları əsasında həyata keçirilməsi və elektron auditin genişləndirilməsindən ibarətdir. Əsas məqsəd vergi orqanlarının xidmətlərinin səviyyəsinin artırılması, vergidən yayınma hallarının azaldılması və könüllü vergi ödəmələrinin artırılmasıdır.

***- Gəlin Məcəlləyə bu ilin əvvəlindən tətbiq olunan dəyişikliklərə baxaq, onların sayı həddən artıq çoxdur, amma siz onlardan əsas hansıları qeyd edərdiniz ?***

- Vergi Məcəlləsində ilin əvvəlində edilən əlavə və dəyişikliklər, əsasən, vergi inzibatçılığının təkmilləşdirilməsi, uçot sisteminin şəffaflaşdırılması, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi və vergi yükünün azaldılması ilə bağlıdır.

Bunlardan vergi yükünün azaldılması, o cümlədən vergi güzəşt və azadolmaları ilə bağlı dəyişikliklər xüsusi əhəmiyyətə malikdir. Məsələn, buğda unu və çörək istehsalı və satışı, eləcə də quş ətinin satışı 3 il müddətində ƏDV-dən azad edilib. Bu dəyişikliklər rəqabət mühiti yaratmaqla kənd təsərrüfatı məhsullarının idxalının azaldılmasına və ölkədə həmin məhsullarının istehsalının artımına yönəlib.

Bundan əlavə, indiyədək kənd təsərrüfatı məhsulları istehsalçılarının əlavə dəyər vergisindən azad edilməsinə baxmayaraq, pərakəndə qaydada satılarkən həmin məhsulların tam dəyəri ümumi qaydada ƏDV-yə cəlb edilirdi və bu da müəyyən qiymət artımına səbəb olurdu.

Dəyişikliklərə əsasən, pərakəndə ticarətdə rəqabət mühitini təmin etmək və vergi yükünü optimallaşdırmaq üçün ölkədə istehsal edilmiş kənd təsərrüfatı məhsullarının pərakəndə ticarəti ilə məşğul olan sahibkarlar tərəfindən satışı zamanı ƏDV-yə yalnız həmin məhsulların satış qiyməti ilə onların alış qiyməti arasındakı fərq, yəni ticarət əlavəsi cəlb olunur.

Digər dəyişikliklərə görə, ödəmə qabiliyyətini itirmiş bankların restrukturizasiyası və sağlamlaşdırılması tədbirləri çərçivəsində qeyri-işlək (toksik) aktivlərin təqdim edilməsi ƏDV-dən 3 il müddətinə, icbari tibbi sığorta və səhiyyə (tibb) xidmətləri göstərən qurumların gəlirləri mənfəət vergisindən müddətsiz azad edilmiş, banklar tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirləri, habelə emitent tərəfindən investisiya qiymətli kağızları üzrə ödənilən dividendin, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirlərinin gəlir vergisindən azad edilməsi müddəti 5 ilə qədər artırılıb. Bu dəyişikliklər sahibkarlıq və investisiya mühitinə müsbət təsir göstərəcəkdir.

Məcəllədə əsas dəyişikliklərdən biri də topdan və pərakəndə ticarətlə məşğul olan vergi ödəyicilərini fərqləndirən meyarların müəyyən edilməsi, elektron qaimə-fakturanın və digər uçot sənədlərinin tətbiqidir. Bu, nəticə etibarilə mal, iş və xidmətlər üzrə əməliyyatların rəsmiləşdirilməsinə, vergidən yayınma hallarının aradan qaldırılmasına və uçot sistemində şəffaflığın artmasına şərait yaradır.

***- Vergi Məcəlləsinə edilmiş dəyişikliklər arasında iş adamları üçün xüsusi maraqlı olanı gəlirlərin könüllü bəyan edilməsi idi. Bu mexanizm özünü doğruldurmu? İndiyədək gəlirlərini könüllü bəyan edənlər olubmu və onların sayı nə qədərdir ?***

- Vergi Məcəlləsinə könüllü vergi açıqlaması sisteminin tətbiqi ilə bağlı müddəalar beynəlxalq təcrübə nəzərə alınmaqla əlavə edilib.

Könüllü vergi açıqlaması dedikdə səyyar vergi yoxlaması başa çatdıqdan sonra yoxlama zamanı aşkar edilməmiş və vergi öhdəliyinin yaranmasına səbəb olan halların vergi ödəyiciləri tərəfindən vergi orqanlarına könüllü olaraq bəyan edilməsi nəzərdə tutulur.

Dəyişikliyə qədər qüvvədə olan qanunvericilikdə vergi ödəyicisinin dəqiqləşdirilmiş vergi bəyannaməsini səyyar vergi yoxlaması başladığı günədək vergi orqanına təqdim edə bilməsi nəzərdə tutulurdu. Lakin dəyişiklik vergi ödəyicilərinə imkan verir ki, səyyar vergi yoxlaması zamanı vergi orqanı tərəfindən aşkar edilməmiş və əlavə vergi hesablanmasına səbəb olacaq halları könüllü şəkildə bəyan etsin və səyyar vergi yoxlamasının aparıldığı dövrə görə dəqiqləşdirilmiş bəyannamə təqdim etsin. Təqdim edilmiş həmin bəyannamə üzrə yalnız könüllü açıqlanmış vergi məbləği büdcəyə ödənilir, həmin məbləğə faiz hesablanmır və maliyyə sanksiyası tətbiq edilmir.

Ötən dövr ərzində bir vergi ödəyicisi tərəfindən könüllü bəyannamə təqdim edilərək dövlət büdcəsinə 15.816 manat vəsait hesablanıb.

***- Maraqlı yeniliklərdən biri də əvvəlcədən razılaşma mexanizmi idi...***

- Elədir. Məlumdur ki, vergi ödəyiciləri tərəfindən vergi öhdəliklərinin düzgün müəyyən edilməməsi nəticəsində maliyyə sanksiyalarının ödənilməsi onların əlavə maliyyə itkilərinə səbəb olur. Vergi Məcəlləsinə edilmiş dəyişiklərdə belə halların qarşısının alınması və vergilərin düzgün hesablanaraq ödənilməsini təşviq etmək məqsədilə, vergi ödəyiciləri tərəfindən aparılması nəzərdə tutulan əməliyyatlar üzrə yaranacaq vergi öhdəliklərinin əvvəlcədən müəyyən edilməsi ilə bağlı mexanizmi nəzərdə tutulub.

Bu mexanizmə əsasən, vergi orqanı tərəfindən vergi ödəyicisinin müraciəti əsasında iri məbləğli müqavilələr üzrə yaranacaq vergi öhdəlikləri həmin müqavilədə nəzərdə tutulmuş əməliyyatlar aparılanadək müəyyən edilir. Həmin müqavilə üzrə sonradan müəyyən edilmiş vergi öhdəliklərindən əlavə vergilər hesablanmır və maliyyə sanksiyaları tətbiq edilmir.

Bu mexanizm bir çox dövlətlərin, o cümlədən Almaniya, Fransa, Avstriya, Belçika, Kanada, Çexiya Respublikası, Danimarka, Estoniya, Finlandiya, Macarıstan, İsrail, İtaliya, Yaponiya, Niderland, İspaniya, Türkiyə, Böyük Britaniya, ABŞ və s. ölkələrin vergi qanunvericiliyinə daxil edilmişdir.

**Vergi sahəsində aparılan islahatlar əlverişli sahibkarlıq və investisiya mühitinin yaradılması, vergi qanunvericiliyinin təkmilləşdirilməsi, vergitutmanın optimallaşdırılması, vergi yükünün azaldılması, vergi güzəştlərinin səmərəsinin artırılması, çevik vergi inzibatçılığının yaradılması, vergi nəzarətinin risk meyarları əsasında həyata keçirilməsi və elektron auditin genişləndirilməsindən ibarətdir**



***- Vergitutmada əsas problemlərdən biri transfer qiymətləri ilə bağlı idi. Bununla əlaqədar hansı işlər görülür və onların nəticələri varmı?***

- Müxtəlif vergitutma normaları olan ölkələrdə fəaliyyət göstərən yerli və xarici şirkətlərin apardıqları kommersiya əməliyyatlarında vergidən yayınma hallarına yol verilməsi risklərinin qarşısının alınması üçün ən yaxşı mexanizmlərdən biri transfer qiymətlərinə nəzarətdir.

Transfer qiymətinin tətbiqinin məqsədi bir-biri ilə qarşılıqlı əlaqəli şəxslər (şirkət və onun daimi nümayəndəliyi, eyni təsisçisi olan şirkətlər və s.) tərəfindən həyata keçirilən əməliyyatların bazar qiymətləri prinsipinə uyğun aparılmasına nəzarət etmək və vergitutma bazasının azaldılmasının qarşısını almaqdır.

Vergi Məcəlləsinə əsasən, transfer qiymətləri təqvim ili ərzində yalnız ümumi dəyəri 500.000 manatdan artıq olan əməliyyatlara tətbiq olunur və mənfəət vergisinin məqsədləri üçün istifadə edilir.

Əlavə olaraq, qeyd etmək istərdim ki, Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası əsasında Vergilər Nazirliyi tərəfindən hazırlanmış «Vergi sisteminin inkişafı üzrə 2013-2020-ci illər üçün» Strateji Planda nəzərdə tutulan «Transfer qiymətlərinin tənzimlənməsi sahəsində qanunvericilik bazasının və inzibati nəzarət mexanizmlərinin yaradılması» mövzusunda Tvinninq layihəsi təklifi aidiyyəti üzrə təqdim edilib. Bu layihə vergitutma bazasının genişləndirilməsindəki rolu və aktuallığı baxımından Avropa Komissiyası tərəfindən müsbət qarşılanıb. Hazırda «Transfer qiymətlərin müəyyən edilməsi və vergidən yayınma hallarına qarşı tədbirlərin işlənib hazırlanmasında Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstək» adlı Tvininq layihəsinin həyata keçirilməsi ilə bağlı tenderin keçirilməsi və tərəfdaş ölkələrin müəyyən olunması istiqamətində Avropa Komissiyası ilə danışıqlar aparılır. Bu layihənin əsas məqsədi transfer qiymətləri ilə bağlı praktiki məsələlərin inzibatçılığına dair Avropa İttifaqı ölkələrinin uğurlu təcrübəsini öyrənmək və gələcəkdə mövcud qaydaları daha da təkmilləşdirməkdir.

***- Maraqlı yeniliklərdən biri də fərdi əməklə məşğul olanlar üçün sabit vergi məbləğinin tətbiq edilməsi oldu. Bu təcrübə özünü doğrultdumu?***

- Doğrudan da, Vergi Məcəlləsinin 220.10-cu maddəsinə edilmiş dəyişiklikliyə əsasən, bəzi fəaliyyət növləri ilə fərdi qaydada (muzdlu işçi cəlb etmədən) məşğul olan fiziki şəxslər «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» almaqla fəaliyyət göstərməlidirlər. Həmin vergi ödəyiciləri xidmət mərkəzlərinə müraciət edərək həmin anda «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» əldə edirlər. Artıq qəbzin internet vasitəsilə elektron qaydada müraciət etməklə əldə olunması imkanı da yaradılmışdır.

Fəaliyyətini «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» almaqla həyata keçirən fiziki şəxslər bu fəaliyyətə görə vergi orqanına bəyannamə təqdim etmirlər.

Məlumat üçün bildiririk ki, cari ilin yanvar-iyun ayları ərzində 1595 vergi ödəyicisi tərəfindən 3035 sayda «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» alınıb.

***- Vergi partnyorları üçün nəzərdə tutulan «yaşıl dəhliz» praktikası lazımi effekti verirmi? «Yaşıl dəhliz»dən istifadə aktivliyi nə səviyyədədir?***

- Vergi ödəyicilərinə göstərilən xidmətlərin səviyyəsinin artırılması məqsədilə intizamlı vergi ödəyicilərinə xidmətin «yaşıl dəhliz» prinsipi əsasında həyata keçirilməsinə keçən ildən başlanılıb. Bu sistem vergi ödəyiciləri ilə vergi orqanları arasında etimadın və şəffaflığın artırılması, sahibkarlara əlverişli şəraitin yaradılması və vergilərin könüllü ödənilməsinin yüksəldilməsini nəzərdə tutur. Partnyor vergi ödəyicisi statusuna malik şəxslər ilk növbədə vergi hesabatlarını vaxtlı-vaxtında təqdim etməli, vergiləri tam həcmdə və vaxtında ödəməli, işçilərinin sayını və onların əmək haqlarını düzgün bəyan etməli, gücləndirilmiş elektron imzaya sahib olmalı, mühasibat uçotunu beynəlxalq və ya milli uçot standartlarına uyğun, yazışmaları isə əsasən elektron şəkildə aparmalıdırlar. Bu günə qədər 451 vergi ödəyicisi şəffaf vergi partnyorluğu statusunu əldə edib və həmin statusu əldə edən vergi ödəyicilərinin sayı artmaqdadır.

***- Bu ilin əvvəlində «Nağdsız hesablaşmalar haqqında» Qanun da qüvvəyə minib. Bu qanunun qəbulundan sonrakı dövrdə nağdsız ödənişlərin dövriyyəsi artıbmı?***

- Əlbəttə, «Nağdsız hesablaşmalar haqqında» Qanunun tətbiqi öz səmərəli nəticəsini verir. Belə ki, qanunun tətbiqi nəticəsində iqtisadiyyatın bütün sahələrində nağdsız ödənişlərin dövriyyəsinin artmasına, xərclərin şəffaflığının təmin edilməsinə, gəlirlərin, əmək haqqlarının və digər ödənişlərin leqallaşmasına və digər iqtisadi göstəricilərinin yüksəlməsinə şərait yaranıb. Bu isə vergi ödəyiciləri tərəfindən vergilərin düzgün hesablanıb ödənilməsi, vergidən yayınma hallarının azalması və vergi sahəsində şəffaflığın artmasına səbəb olub. Konkret rəqəmlərə müraciət edək. Məsələn, cari ilin bitən dövrü ərzində mal, iş və xidmətlərin alınmasına görə nağd pul məxarici 62,6 faiz, ticarət müəssisələri üzrə 67,5 faiz, əmək haqqı və digər ödənişlər üzrə 75,3 faiz azalıb. Qanunun gələcək tətbiqi qeyd etdiyim sahələrdə səmərəliliyin daha da artmasına imkan yaradacaqdır.

***- İlin əvvəlində Vergilər Nazirliyində də struktur dəyişiklikləri baş verib. Bu dəyişikliklər nə qədər effektli olub?***

- İlin əvvəlində nazirlikdə aparılan struktur dəyişiklikləri vergi inzibatçılığı sahəsində daha çevik və səmərəli sistemin qurulması ilə bağlı olub və öz müsbət nəticəsini göstərib. Milli vergi administrasiyasındakı son dəyişikliklər istər mahiyyət, istərsə də əhatə baxımından daha böyük əhəmiyyətə malikdir.

İndiyədək vergi orqanlarında əsas iş yükü böyük dövriyyəsi olan vergi ödəyiciləri ilə aparılan işlərə yönəldilirdi və dövriyyələrindən asılı olmayaraq, bütün vergi ödəyicilərinə (iri, orta və kiçik) eyni inzibati mexanizmlər tətbiq edilirdi. Yeni dövrdə isə vergi inzibatçılığında bu yanaşmanı dəyişmək, hər kateqoriyaya aid vergi ödəyicisinə ona uyğun yanaşmalar tələb olunurdu. Buna görə də dəyişikliklər zamanı beynəlxalq təcrübədə geniş istifadə olunan «fərdi yanaşma» və «dövriyyə intervalları» prinsipləri əsas götürüldü.

«Dövriyyə intervalları» prinsipi vergi inzibatçılığının bütün sahələrində tətbiq edilməklə, vergi ödəyicilərinə münasibətdə yanaşmanı diferensiallaşdırmaq, daha səmərəli, çevik və şəffaf inzibatçılığı yaradıldı. Burada əsas yanaşma, kiçik və orta sahibkarlıq subyektləri ilə iri və xüsusi rejimli müəssisələrlə iş prinsiplərini ayırmaq, hər bir sahibkarlıq qrupuna fərdi yanaşmanı təmin etmək, fiskal və inzibatçılıq yükünün düzgün bölüşdürülməsini təmin etməkdir.

Yeni struktur quruluşu, ilk növbədə, iri vergi ödəyiciləri üzrə işlərin daha keyfiyyətli təşkilinə, orta sahibkarlarla münasibətlərin əsasən partnyorluq müstəvisində qurulmasına, kiçik sahibkarlara münasibətdə isə daha sadə və səmərəli vergi inzibatçılığının yaradılmasına xidmət edir.

Fərqli dövriyyəyə malik və fərqli sahələrdə fəaliyyət göstərən vergi ödəyicilərinə fərdi yanaşma prinsipinin tətbiqi belə ödəyicilərə daha səmərəli xidmətlərin göstərilməsinə, onlarda vergi nəzarəti tədbirlərinin minimallaşdırılmasına, belə ödəyicilərə münasibətdə vergilərlə bağlı bütün tədbirlərin, faktiki olaraq, «bir pəncərə» prinsipi üzrə həyata keçirilməsinə imkan verir.

**Fərqli dövriyyəyə malik və fərqli sahələrdə fəaliyyət göstərən vergi ödəyicilərinə fərdi yanaşma prinsipinin tətbiqi belə ödəyicilərə daha səmərəli xidmətlərin göstərilməsinə, onlarda vergi nəzarəti tədbirlərinin minimallaşdırılmasına, belə ödəyicilərə münasibətdə vergilərlə bağlı bütün tədbirlərin, faktiki olaraq, «bir pəncərə» prinsipi üzrə həyata keçirilməsinə imkan verir**

***- Azərbaycandakı xarici və yerli iş adamlarının fəaliyyətlərini əlaqələndirmək, biznesin inkişafına dəstək məqsədilə bir müddət əvvəl Azərbaycanda «Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçilər İctimai Birliyi» (TUİB) qurulub. Sizcə, bu qurum ölkədə sahibkarlığın maariflənməsinə hansı faydalar verə bilər və TUİB-in fəaliyyətindən hansı gözləntiləriniz var?***

- «Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçilər İctimai Birliyi»nin yaradılması ölkələrimiz arasında olan iqtisadi əlaqələr baxımından mühüm əhəmiyyət kəsb edir.

Vergilər Nazirliyi Azərbaycanda fəaliyyət göstərən, ölkə iqtisadiyyatına investisiya yatıran əcnəbi iş adamlarının fəaliyyətini koordinasiya edən bir çox birlik və qurumlarla sıx əməkdaşlıq edir. Mütəmadi olaraq görüşlər keçirilir, fikir mübadiləsi aparılır, əcnəbi iş adamlarının vergi qanunvericiliyi və inzibatçılığı ilə bağlı təklifləri diqqətlə dinlənilir. Təbii ki, burada TUİB-lə qarşılıqlı əlaqələrin qurulması və inkişaf etdirilməsinə xüsusi önəm verilir. Bu baxımdan, birlik tərəfindən türkiyəli və yerli iş adamlarının fəaliyyətinin koordinasiyası, Azərbaycanda biznesin inkişafı və qanunvericiliyin tətbiqi sahələrində hərtərəfli maarifləndirmə işləri aparılacağına, son nəticə olaraq, hər iki ölkənin biznes strukturları arasında körpü rolu oynayacağına inanıram.

**«İş dünyamız» jurnalı,**
***aprel-iyun buraxılışı, 2017***


## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin avqust və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-cı ilin avqust və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin
195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə
www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az
internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

### Sahibkarlıq fəaliyyəti

***Metal tullantılarının ayrı-ayrı şəxslərdən toplayaraq qəbul məntəqələrinə və istehsal sahələrinə təhvil verilməsi zamanı hansı vergi öhdəlikləri yaranır?***

Vergi Məcəlləsinin (VM) 13.2.37-ci maddəsinə əsasən-sahibkarlıq fəaliyyəti - şəxsin müstəqil surətdə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, malların təqdim edilməsindən, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət (fərdi sahibkarlar tərəfindən gəlir) götürülməsindən ibarət olan fəaliyyətdir.

Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin vergiyə cəlb edilən gəlirlərindən 20 faiz dərəcə ilə vergi tutulur.(VM, maddə 101.3)

Sahibkarlıq fəaliyyəti göstərən və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan artıq olan şəxslər, o cümlədən VM-in 218.1-ci maddəsi ilə müəyyən edilmiş hüquqdan istifadə etməyən ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər (VM-in 218.4.1-ci, 218.4.2-ci və 218.4.3-cü maddələrində göstərilənlər istisna olmaqla) VM-in 157.3.1-ci maddəsində göstərilən tarixdən 10 gün ərzində ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludur (VM, maddə 155.1).

Hesabat dövrü ərzində vergi ödəyicisi tərəfindən (VM-in 218.4-cü maddəsində nəzərdə tutulmuş vergi ödəyiciləri istisna olmaqla) təqdim edilmiş mallara (işlərə, xidmətlərə) və əmlaka görə əldə edilmiş ümumi hasilatın, habelə satışdankənar gəlirlərin (ödəmə mənbəyində vergi tutulmuş gəlirlər istisna edilməklə) həcmi vergitutma obyektidir (VM, maddə219.1).

**Qeyd olunanlara əsasən:**

Metal tullantılarının ayrı-ayrı şəxslərdən toplayaraq istehsalat müəssisəsinə təqdim edilməsindən əldə olunan gəlirdən vergi ödəyicisi seçdiyi vergitutma metodundan(gəlir vergisi, ƏDV və ya sadələşdirilmiş vergi) asılı olaraq müvafiq vergiləri hesablayıb dövlət büdcəsinə ödəyir.

Suallarınızı redaksiyamızın ünvanına:
AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

# Nağdsız ödənişlərə keçid zamanın tələbidir

## *POS-terminalların quraşdırılması və onlardan istifadəyə nəzarət gücləndirilir*

İnkişaf etmiş ölkələrdə alış-verişin təxminən 80-85 faizi ödəniş kartları vasitəsilə nağdsız qaydada aparılır. Hazırda Azərbaycanda təxminən 4,5 milyona yaxın ödəniş kartından istifadə olunsa da, nağdsız ödənişlər üzrə göstəricilər hələ arzu edilən səviyyədə deyil. Nağdsız ödənişlərə keçidlə bağlı qanunvericilik bazası təkmilləşdirilir, maddi-texniki imkanlar gücləndirilir.

2017-ci ildən qüvvəyə minmiş «Nağdsız hesablaşmalar haqqında» Qanuna əsasən aşağıdakı hesablaşmalar yalnız nağdsız qaydada həyata keçirilir:

- vergilərin, gömrük rüsumları və yığımlarının, qanunla müəyyən edilmiş inzibati cərimələrin, maliyyə sanksiyalarının və faizlərin, lizinq əməliyyatları üzrə borcların ödənilməsi və kreditlərin verilməsi;
- «Sığorta fəaliyyəti haqqında» və «İcbari sığorta haqqında» Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş ödənişlər;
- dövlət orqanlarına, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə, büdcə təşkilatlarına və publik hüquqi şəxslərə ödənilən xidmət haqları və digər yığımlar;
- əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) iki yüz min manatadək olan pərakəndə ticarət, iaşə və xidmət sahəsində fəaliyyət göstərən şəxslər istisna olmaqla, digər şəxslər tərəfindən ödənilən əmək haqları (o cümlədən, işəgötürən tərəfindən ödənilən, qanunvericiliklə müəyyən edilmiş digər ödənişlər), pensiya, təqaüd, maddi yardım, müavinətlər (o cümlədən, birdəfəlik müavinətlər), kompensasiyalar və təzminatlar;
- stasionar telefon xidmətlərinin və kommunal xərclərin ödənilməsi;
- faizsiz pul vəsaitlərinin (vergi ödəyicisi olmayan şəxslər tərəfindən pul vəsaitlərinin verilməsi halları istisna olmaqla), digər ayırmaların ödənilməsi və qaytarılması;
- dövlət satınalma müqaviləsi üzrə əldə olunan vəsaitin istifadəsi (xərclənməsi);
- təhsil haqlarının ödənilməsi;
- turagentlərə ödəmələr.



Qanunun bütün gücü ilə işləməsi üçün Azərbaycan hökuməti nağdsız ödəniş infrastrukturunu maksimum dərəcədə genişləndirməyə və müasirləşdirməyə çalışır. Bakıda və ümumilikdə Azərbaycanda bir sıra xidmət sahələrinin, o cümlədən müxtəlif ticarət, əyləncə, iaşə və s. obyektlərin müasir səviyyəyə uyğunlaşdırılması məqsədilə POS-terminalların quraşdırılması və onlardan istifadə olunması Vergilər Nazirliyi tərəfindən ciddi nəzarətə götürülüb. Vergilər Nazirliyi tərəfindən yaradılmış qərargaha vergi ödəyicilərinə məxsus təsərrüfat subyektlərində POS-terminalların quraşdırılması, istifadəsi, işlək vəziyyətdə olması, ondan istifadə qaydalarının mənimsənilməsinin nəzarətdə saxlanılması, əhali ilə hesablaşmalar sahəsində qanunvericiliyə əməl olunması tapşırılıb. Bunun üçün vergi əməkdaşları təhkim edilib və müvafiq işlərin yerinə yetirilməsi istiqamətində operativ nəzarət tədbirləri həyata keçirilir.

Nəzarət tədbirlərindən başqa, POS-terminallardan istifadənin üstünlükləri və istifadə qaydası barədə həm əhali, həm də vergi ödəyiciləri arasında Vergilər Nazirliyi tərəfindən mütəmadi məlumatlandırma işləri aparılır. Nazirliyin hazırladığı «POS-terminalların tətbiqi ilə əlaqədar vergi ödəyicilərinin məlumatlandırılması zamanı görülməli işlərə dair tövsiyələr» vergi ödəyicilərinə obyektlərdə quraşdırılmış POS-terminallardan istifadə vərdişlərinin aşılanması, eləcə də nağdsız ödənişlərin əlverişliliyi və üstünlükləri barədə geniş izahat və təbliğat işlərinin həyata keçirilməsi üçün nəzərdə tutulub. Bundan əlavə, əhalinin məlumatlandırılması məqsədilə sahibkarlıq obyektlərinin görünən yerlərində stiker formasında təbliğat-təşviqat lövhələri quraşdırılıb.

Ödənişlərin kartlar vasitəsilə nağdsız qaydada aparılmasına dövlət maraqlı olduğu qədər ictimaiyyət də maraqlı olmalıdır

Burada əsas məqsəd nağdsız ödənişlərə keçidin əhəmiyyəti barədə əhalidə düzgün münasibətin formalaşdırılmasıdır. Ödənişlərin kartlar vasitəsilə nağdsız qaydada aparılmasına dövlət maraqlı olduğu qədər ictimaiyyət də maraqlı olmalıdır.

**Rəşad SADIQOV**

# Qanunsuz sahibkarlıqla mübarizədə cəmiyyət fəal olmalıdır

Dövlət tərəfindən müəyyənləşdirilən vergi güzəştləri, müəssisələrdə aparılan yoxlamaların dayandırılması, dəstək xarakterli müxtəlif tədbirlərin görülməsi sahibkarlığın inkişaf etdirilməsinə, ölkə iqtisadiyyatının gücləndirilməsinə və son nəticədə hər bir vətəndaşın həyat səviyyəsinin yüksəlişinə xidmət edir. Lakin təəssüflər olsun ki, bəzi hallarda verilən güzəştlərdən sui-istifadə etmək meyillərinə də rast gəlirik. Bir sıra işbaz sahibkarlar qanunla müəyyən olunmuş qaydalara məhəl qoymur, vergilərin gizlədilməsi üçün müxtəlif vasitələrdən istifadə etməyə çalışırlar. Bu cür hallara qarşı daha təsirli tədbirlər görmək üçün ötən il Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində yeni struktur bölmə - İqtisadi sahədə mütəşəkkil cinayətkarlığa qarşı mübarizə idarəsinin tərkibində qanunsuz sahibkarlıq fəaliyyətinə qarşı mübarizə şöbəsi yaradılıb. Şöbənin yaradılmasında başlıca məqsəd qanunsuz sahibkarlıq və vergidən mütəşəkkil qaydada yayınma halları ilə mübarizə sahəsində vəziyyəti yaxşılaşdırmaq, ciddi qanun pozuntularına qarşı mübarizənin səmərəliliyini artırmaqdır.

Bu günlərdə Bakı şəhərində keçirilmiş vergi nəzarəti tədbirləri zamanı vergi orqanlarında qeydiyyata durmadan qanunsuz sahibkarlıqla məşğul olma faktları aşkarlanmışdır. Paytaxtın müxtəlif ərazilərində istehsal və xidmət obyektlərində əmək münasibətlərinin pozulması, uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məğul olma kimi halların mövcudluğu təəssüf doğurur.

Vergi orqanlarının apadıqları müşahidələr göstərir ki, bəzi sahibkarlar 2016-cı il iyunun 1-dən qüvvəyə minmiş Cinayət Məcəlləsinə edilmiş dəyişikliklərdən daha çox sui-istifadə etməyə çalışırlar. Məcəllənin 192-ci maddəsinə edilmiş dəyişikliyə əsasən, qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəyyən qrup şəxslər cinayət məsuliyyətindən azad olunurlar. Başqa sözlə desək, 20.000 manata qədər vergi ödənişlərindən yayınan şəxslər cinayət məsuliyyətinə deyil, inzibati məsuliyyətə cəlb edilirlər. Həmin məbləğ, yəni cinayət nəticəsində əldə edilmiş gəlir tamamilə dövlət büdcəsinə köçürüldükdə sahibkarlar cinayət məsuliyyətindən azad olunur. Qeyd edək ki, əvvəllər iqtisadi fəaliyyət sahəsinə aid cinayət məsuliyyəti yaradan hədd 1000 manat müəyyən edilmişdi. Dəyişikliklərdən sonra bu məbləğ 20 dəfə artırılıb. Bundan başqa, 2016-cı ildə sahibkarlıq fəaliyyətinin stimullaşdırılması üçün bəzi güzəştlər müəyyənləşdirilib. Əvvəllər hansısa sahibkarlıq subyektinin dövriyyəsinin gizlədilməsinə görə yüksək cərimələr və həbs qətimkan tədbiri tətbiq olunurdusa, bu ildən onlara qarşı tətdbirlər xeyli yüngülləşdirilib. İlk dəfə böyük ictimai təhlükə törətməyən qanunsuz sahibkarlıq və ya yalançı sahibkarlıq cinayətlərini törətmiş şəxslər əldə etdikləri qanunsuz gəliri və ya vurduqları ziyanı dövlət büdcəsinə tamamilə ödədikdə məsuliyyətdən azad olunurlar.

Vergi orqanları inzibatçılığı təkmilləşdirərək sahibkarlarla münasibətləri partnyorluq müstəvisində qurur, inzibati metodlarla deyil, vergi mədəniyyətini və könüllü ödəmə vərdişlərini təlqin etməyə çalışır.

Qanunsuz sahibkarlığa yol açan amillərdən biri də bəzi şəxslərin vergidən yayınmaq məqsədilə uçota alınmadan fəaliyyət göstərməsidir. Vergi Məcəlləsinin 53.6-cı maddəsinə əsasən, vergi orqanında uçota alınmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər üçün maliyyə sanksiyası tətbiq edilir. Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin sahibkarlıq fəaliyyətinə başladığı günədək vergi orqanında uçota dayanması nəzərdə tutulub. Bu tələbə əməl olunmadıqda fiziki şəxsə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq olunur. Vergi Məcəlləsinin 58.7-ci maddəsi ilə nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulmasına, nəzarət kassa aparatları və ya ciddi hesabat blankları tətbiq edilməməsinə görə də sanksiyalar müəyyən edilib. Vergi ödəyicisinə il ərzində belə hallara birinci dəfə yol verildikdə 400 manat, ikinci dəfə yol verildikdə 800 manat, üç və daha çox dəfə yol verildikdə 1200 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir. Vergi Məcəlləsinin 58-ci maddəsində digər qanun pozuntularına görə də konkret maliyyə sanksiyalarının tətbiq olunması, o cümlədən işəgötürən işçiləri əmək müqaviləsi bağlamadan hər hansı işlərin yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə şərait yaradırsa, hər bir belə şəxs üzrə ona 1000 manat məbləğində maliyyə sanksiyasının tətbiq edilməsi nəzərdə tutulub. Sahibkarların bəzisi elə başa düşür ki, qanunsuz sahibkarlıq inzibati məsuliyyət tədbiri və ya maliyyə sanksiyası ilə məhdudlaşdırılacaq və onlar cinayət məsuliyyəti yaradan hallara görə mühakimə olunmayacaqlar. Halbuki Cinayət Məcəlləsinin 192-ci maddəsində müxtəlif hallar üzrə törədilmiş zərərlərə görə azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulub.

**Hər kəs anlamalıdır ki, istənilən qanunu pozmaq, eləcə də vergidən yayınmaq məsuliyyət yaradır və hər kəs öz əməlinə görə qanun qarşısında cavab verməli olur. İndi ayrı-ayrı insanları məsuliyyət yaradan əməllərdən çəkindirmək üçün ictimaiyyət də təşəbbüskarlıq göstərməlidir. Təkcə vergi orqanları və digər dövlət qurumları deyil, ictimaiyyət, sahibkarların özləri qanunu pozanlara qarşı mübarizədə fəal olmalıdır.**

**E.CƏFƏRLİ**

# İşsizlikdən müdafiə sistemi qurulur

2018-ci il yanvarın 1-dən qüvvəyə minəcək «İşsizlikdən sığorta haqqında» Qanun işsizlikdən sığortanın təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən edir, sığortanın subyektləri arasındakı münasibətləri tənzimləyir. Qanunun məqsədi respublikamızın əmək bazarında riskin ötürülməsinə əsaslanan münasibətlərin və yeni maliyyələşmə mexanizmlərinin yaradılması, sığortaolunanların itirilmiş əməkhaqlarının kompensasiya olunması və işsizliyin yaranması hallarının qarşısının alınması üçün qabaqlayıcı tədbirlərin görülməsi yolu ilə əhalinin sosial müdafiəsinin gücləndirilməsinə təminat verilməsidir. Qanun dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi və ya işçilərin sayı və ya ştatların ixtisar edilməsi nəticəsində əmək münasibətlərinə xitam verilmiş şəxslərə şamil edilir.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini İdris İsayev yeni qanunvericilik aktları ilə əlaqədar keçirdiyi mətbuat konfransında bildirib ki, bazar münasibətləri şəraitində işsizlikdən müdafiə sisteminin sosial-iqtisadi məsələlərin həllinə, əmək hüquqlarının qorunmasına, sosial ədalətin təmin edilməsinə yönəlmiş dövlət siyasətinin əsas elementlərindən biri olan bu sistem dünyada 72 ölkədə fəaliyyət göstərir. Bu ölkələrin hər birində işsizlikdən sığorta sistemi ölkənin iqtisadi potensialında, əmək bazarının vəziyyətindən, işsizliyin xüsusiyyətlərindən, aztəminatlı əhaliyə münasibətdə digər sosial proqramların mövcudluğu vəziyyətindən və s. hallardan asılı olaraq yaradılıb: «Azərbaycanda da Dövlət Məşğulluq Strategiyasında ölkəmizdə işsizlikdən sığorta sisteminin yaradılması məsələsi əksini tapıb. Beynəlxalq Əmək Təşkilatının Azərbaycan tərəfindən ratifikasiya edilmiş konvensiyasında və tövsiyəsində də işsizlikdən sığorta sisteminin tətbiqi məsələsi yer alıb. Bu sığorta sisteminin əsas məqsədi işsizin iş yerini itirdiyi andan onun yeni iş yeri tapanadək olan dövrdə itirilmiş gəlirlərinin tam və ya qismən kompensasiya edilməsi və ona əmək bazarına təkrar qaytarılmasına kömək göstərilməsidir. Bu qanun müasir dünyada işsizlikdən sığorta sahəsində mövcud olan mütərəqqi cəhətlər əsas götürülməklə, beynəlxalq ekspertlərin rəyi, Beynəlxalq Əmək Təşkilatının tövsiyələri, aidiyyəti qurumların rəy və təklifləri nəzərə alınmaqla təkmil səviyyədə hazırlanıb. Qanun ölkəmizin əmək bazarında riskin ötürülməsinə əsaslanan münasibətlərin və yeni maliyyələşmə mexanizmlərinin yaradılmasına, sığortaolunanların, yəni işəgötürənlə əmək müqaviləsi bağlamış və işsizlikdən sığorta olunan işçilərin itirilmiş əməkhaqlarının kompensasiya olunmasına xidmət edir. Digər tərəfdən isə bu qanun işsizliyin yaranması hallarının qarşısının alınması məqsədilə qabaqlayıcı tədbirlərin görülməsi yolu ilə əhalinin sosial müdafiəsinin gücləndirilməsinə əsaslı təminat yaradır».

İşsizlikdən sığorta üzrə tarif dərəcələrinin də dünya ölkələrindəki tariflər üzrə ən aşağı səviyyədə nəzərdə tutulduğunu deyən nazir müavini əlavə etmişdir ki, qanunda həmin tarif dərəcələri sığortaedən tərəfindən hesablanmış əməyin ödənişi fondunun 0,5 faizi və sığortaolunan, yəni işçi tərəfindən əməkhaqqının 0,5 faizi səviyyəsində müəyyən olunub. İşsizlikdən sığorta sistemi işsiz vətəndaşları uzun müddət sığorta ödənişi almağa deyil, əksinə, onların ixtisaslarını, təhsillərini, peşəkarlıqlarını artırmaqla, yenidən əmək bazarına qaytarılmasını stimullaşdırır: «Sığorta ödənişini almaq hüququ yalnız dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi, yaxud işçilərin sayı və ya ştatların ixtisarı nəticəsində əmək münasibətlərinə xitam verilmiş və məşğulluq orqanında işsiz kimi qeydiyyata alınmış sığortaolunanlara şamil edilir. İşsizliyin başlanmasından əvvəlki 24 təqvim ayı ərzində 12 təqvim ayından çox, lakin ən azı 3 il sığorta stajına malik əmək qabiliyyətli şəxslər üçün sığorta ödənişi nəzərdə tutulur. Yəni həmin şəxslərə sığorta ödənişi onların sığorta stajından asılı olaraq itirilmiş orta aylıq əməkhaqqlarının məbləğinə görə sığorta stajı 3 ildən 5 ilə qədər olduqda - 50 faiz, 5 ildən 10 ilə qədər olduqda - 55 faiz, 10 ildən yuxarı olduqda isə 60 faiz səviyyəsində müəyyən edilib».

Sığorta ödənişinin ilkin müraciət zamanı 6 ay, təkrar müraciət zamanı isə 3 ay müddətinə təyin ediləcəyini bildirən nazir müavini ona da qeyd edib ki, bir şəxs üçün sığorta ödənişinin verilmə müddəti ilkin müraciət zamanı sığorta ödənişi təyin edildiyi aydan sonrakı 24 ay ərzində 9 aydan artıq ola bilməz: «Bununla yanaşı, vətəndaş ilk dəfə sığorta ödənişi təyin olunduğu vaxtdan sonrakı 24 ay ərzində «Məşğulluq haqqında» Qanunda nəzərdə tutulmuş münasib işlə təmin edilmədikdə ona bir dəfə təkrar müraciət edərək yenidən minimum sığorta ödənişi almaq hüququ verilir. Digər tərəfdən, qanunda müvafiq hallarda sığorta ödənişinə əlavə də nəzərdə tutulur ki, bu da sığorta ödənişi təyin edilmiş şəxsin himayəsində 18 yaşa çatmamış uşaq olduqda nəzərdə tutulub. Lakin ailədə ər və arvadın hər ikisinə sığorta ödənişi təyin edildikdə, onlardan yalnız birinə əsas sığorta ödənişinə əlavəni almaq hüququ şamil edilir».

İşsizlikdən sığorta sistemi işsiz vətəndaşları uzun müddət sığorta ödənişi almağa deyil, əksinə, onların ixtisaslarını, təhsillərini, peşəkarlıqlarını artırmaqla, yenidən əmək bazarına qaytarılmasını stimullaşdırır

Bildirmişdir ki, işsizlikdən sığorta sisteminin tətbiqi özünüməşğulluq proqramının gələcəkdə daha geniş vüsət almasına, daha çox insanın özünüməşğulluğuna dəstək verilməsinə, digər aktiv məşğulluq tədbirlərinin miqyasının genişlənməsinə də əsaslı təminat yaradacaq.

**Aytən NƏBİYEVA**

# Aqrar sahənin inkişafı prioritet hesab olunur

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov 2017-ci ilin birinci yarısının iqtisadi yekunları ilə bağlı müsahibəsində kənd təsərrüfatının inkişafı, aqrar sektorun genişləndirilməsi istiqamətində görülən işlərə qiymət vermişdir.

Millət vəkili bildirmişdir ki, Azərbaycanın daxili siyasətində inkişaf şaxələndirilmiş iqtisadi strategiyaya əsaslanır. 2004-cü ildən başlayaraq regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramları icra olunur və hazırda bu proqramların üçüncü mərhələsi həyata keçirilir: «Azərbaycan bu bölgədə və dünyada sabitlik məkanı kimi tanınır. Əlbəttə, belə bir şəraitdə həm investisiyaların qoyuluşu üçün maraq göstərilir, həm də xalqımız rahat yaşayır, əhalimizin rifah halı yaxşılaşır.

Bu dövrdə qeyri-neft iqtisadiyyatımız 1,7 faiz artıb. Qeyri-neft sənayesində isə artım 4,4 faizdir. Bu ilin altı ayında ölkə iqtisadiyyatına 5 milyard dollar sərmayə qoyulub. Həmçinin, ölkəmizin valyuta ehtiyatları artıb və 40,6 milyard dollar təşkil edir. Altı ay ərzində valyuta ehtiyatlarımızda təxminən 3 milyard dollar artım olub. Kənd təsərrüfatında da 2,2 faiz səviyyəsində artım baş verib».

**İqtisadiyyatın bütün sahələrində olduğu kimi ölkəmizin aqrar sahəsində də zamanın çağırışlarına uyğun olaraq iqtisadi inkişaf modellərindən istifadə olunur**

Qeyd edilmişdir ki, qlobal iqtisadi çətinliklər fonunda ölkəmizdə aqrar sektorun inkişafının güclü şəkildə dəstəklənməsi təsadüfi deyil: «Azərbaycan kənd təsərrüfatının inkişafı sahəsində tarixən güclü ənənələrə malik olan ölkədir. Əlverişli coğrafi iqlim xüsusiyyətləri ölkəmizdə aqrar sektorun geniş inkişaf imkanlarına malik olmasını şərtləndirir. Eyni zamanda, həyata keçirilən səmərəli siyasət sayəsində Azərbaycanın iqtisadi potensialının və maliyyə imkanlarının artması respublikamızda kənd təsərrüfatı sahəsində mövcud olan imkanlardan istifadə edilməsinə münbit zəmin yaradır. Ölkə əhalisinin təxminən yarısının bölgələrdə yaşadığını və məşğul əhalinin 40 faizinin kənd təsərrüfatında çalışdığını nəzərə alsaq, deyə bilərik ki, aqrar sektorun inkişaf etdirilməsi sosial baxımdan da ciddi önəm kəsb edir».

Millət vəkili ölkəmizdə kənd təsərrüfatına praktiki müstəvidə geniş maliyyə və texniki dəstək göstərildiyini və bu sahədə hədəflənən yüksək nəticələrin əldə olunması məqsədilə institusional islahatlar həyata keçirildiyini, qanunvericilik bazasının gücləndirilməsini, Sahibkarlığa Kömək Milli Fondunun kredit portfelinin 65-70 faizinin kənd təsərrüfatı istehsalına və kənd təsərrüfatı məhsullarının emalı sahələrinə yönəldildiyini, fermerlərin torpaq vergisi istisna olmaqla, bütün növ vergi ödənişlərindən azad olduqlarını xüsusi vurğulamışdır. E.İbrahimov qeyd etmişdir ki, müasir meliorasiya, irriqasiya sistemləri dövlət investisiyaları hesabına qurulur. Eyni zamanda, iri fermer təsərrüfatlarının yaradılması respublikamızda kənd təsərrüfatı məhsulları istehsalının artırılmasını stimullaşdırmaq və əhalinin ərzaq təminatını yerli istehsal hesabına daha da yaxşılaşdırmaq məqsədi daşıyır: «Hazırda aqrar sahənin daha da inkişafı xüsusi diqqət mərkəzindədir və bu sahədə yeni aqroparkların yaradılması işi sürətlə gedir. Bu günə qədər dövlətin təşəbbüsü və maliyyə dəstəyi ilə 32 iri fermer təsərrüfatı yaradılıb. İndi 38 böyük aqropark yaradılır. Tezliklə 38 aqroparkın yaradılması bizim ixrac potensialımızı böyük dərəcədə artıracaq. Qeyri-neft sektoru məhsullarının ixracı 27 faiz artıb. Bu məhsullar sırasında kənd təsərrüfatı məhsulları da üstünlük təşkil edir».

İqtisadiyyatın bütün sahələrində olduğu kimi ölkəmizin aqrar sahəsində də zamanın çağırışlarına uyğun olaraq iqtisadi inkişaf modellərindən istifadə olunur: «Hazırda aqrar sahəni innovasiyalar tətbiq etmədən inkişaf etdirməyi təsəvvür etmək çox çətindir. Bunu nəzərə alaraq aqrar sahədə innovasiyanın tətbiqi istiqamətində geniş işlərə başlanmışdır.

Millət vəkili «Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi»ndən danışarkən bildirmişdir ki, bu sənədin ümumi məqsədi Azərbaycan Respublikasında kənd təsərrüfatı sektorunun yüksək rəqabət qabiliyyətinə və dayanıqlı inkişafına nail olmaqdır: «Strateji yol xəritəsində ölkəmizin kənd təsərrüfatı məhsullarının istehsalında və emalında istifadə olunan istehsal vasitələri və bu sektorda həyata keçirilən xidmətlə təminat məsələləri də dərindən araşdırılmış və bütün bu məsələlərin yaxşılaşdırılması üçün görülməsi vacib olan istiqamətlər müəyyən edilmişdir. Strateji yol xəritəsində onun əsas məqsədlərindən biri olan əhalinin ərzaq və qida təhlükəsizliyinin təmin olunması çox geniş və əhatəli formada təhlil edilərək görüləcək işlər müəyyən edilmişdir. Bu məqsədlə Ərzaq Təhlükəsizliyi Komissiyasının və Qida Təhlükəsizliyi Agentliyinin yaradılması, beynəlxalq normalara uyğun rasional fizioloji istehlak normalarının hazırlanması, ölkənin, həmçinin hər bir regionun və inzibati rayonun ərzaq məhsulları üzrə tələbatı bu normalar əsasında dəqiqləşdirilərək, ərzaq ehtiyatlarının çeşid və həcm göstəriciləri üzrə yaxın, orta və uzunmüddətli proqnozların hazırlanması nəzərdə tutulur».

E.İbrahimov ötən ilin iyun ayında Milli Məclis tərəfindən qəbul edilmiş «Kənd təsərrüfatı kooperasiyası haqqında» Qanunla bağlı şərh verərək bildirmişdir ki, məqsəd Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalçılarının könüllü birləşməsi əsasında iri kənd təsərrüfatı müəssisələri yaratmaq, onların istehsal potensialından səmərəli istifadə etməklə rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsulları istehsal etmək və məhsuldarlığı artırmaqdır: «Qanun layihəsi hazırlanarkən dünya təcrübəsi öyrənilib. Kooperasiya sistemi Azərbaycanda kənd təsərrüfatının inkişafına, istehsal olunan məhsulların rəqabət qabiliyyətliliyinin daha da artırılmasına və onların Avropa standartlarına uyğun gəlməsinə öz töhfəsini verəcək. Bu məqsədə nail olmaq üçün «Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı» çərçivəsində bir sıra vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur. Onların sırasında kooperativlərin fəaliyyəti ilə bağlı maarifləndirmənin və təbliğat-izahat işinin gücləndirilməsini, kooperativlərin dövlət tərəfindən dəstəklənməsini, aqrar sektorun rəqabət qabiliyyətinin yüksəldilməsini, torpaqdan səmərəli istifadə edilməsini, kənd təsərrüfatı kooperasiyası sisteminin inkişaf etdirilməsini, kənd təsərrüfatı istehsalında səmərəliliyin təmin edilməsini, kənd təsərrüfatında innovasiyaların tətbiqinə şərait yaradılmasını qeyd etmək olar. Dövlət proqramında Azərbaycanda kənd təsərrüfatı kooperasiyasının inkişafı sahəsində qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün bir sıra istiqamətlər üzrə müvafiq tədbirlərin həyata keçirilməsi də nəzərdə tutulur. Kənd təsərrüfatı kooperativlərinin və onların ittifaqlarının (assosiasiyalarının) yaradılmasının və inkişafının dəstəklənməsi, kooperativlərin yaradılması və inkişafı üçün əlverişli sosial-iqtisadi və hüquqi mühitin formalaşdırılması, kənd təsərrüfatı istehsalçılarının kooperativlərdə birləşməsinin stimullaşdırılması ilə bağlı tədbirlər görülməsi, kooperativlərdən hazır məhsulun qısa müddətdə tədarükünü, daxili və xarici bazara çıxışını təmin edən mexanizmin yaradılması və s. bu tədbirlər sırasına daxildir».

**FƏXRİYYƏ**

# «Azexport» fəaliyyətini genişləndirir

**Qeyri-neft məhsullarının ixracının genişləndirilməsi və şaxələndirilməsi bu gün Azərbaycan iqtisadiyyatının prioritet məsələlərindəndir. Bu sahədə müxtəlif alətlər vasitəsilə sahibkarlara yeni imkanlar yaradılır. «Made in Azerbaijan» brendinin dünyada tanıdılması, ixrac missiyalarının və vahid ölkə stendlərinin təşkili, xaricdə patent və sertifikatların alınması kimi məsələlərdə sahibkarlara dəstək göstərilir. Qısa müddətdə təşkil olunan ixrac missiyaları zamanı məhsullarımız xarici bazarlara çıxarılıb, müqavilələr imzalanıb.**

«Bir pəncərə» İxraca Dəstək Mərkəzinin yaradılması da ixracın stimullaşdırılmasında çox böyük rol oynayır. «Azexport» portalının nəzdində fəaliyyət göstərən «Bir pəncərə» İxraca Dəstək Mərkəzi sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasında vergi ödəyicisi kimi qeydiyyatdan keçmiş şəxslərlə onların xarici biznes tərəfdaşları arasında sənədlərin, o cümlədən müqavilələrin elektron formada tərtibinə və imzalanmasına, habelə real vaxt rejimində transsərhəd elektron xidmətlərin həyata keçirilməsinə imkan verir.

Hazırda mərkəzə inteqrasiya olunan dövlət orqanlarının nümayəndələri xidmət mərkəzində fəaliyyət göstərərək informasiya resursları ilə real vaxt rejimində məlumat mübadiləsini təşkil edir: «Mərkəz bir sıra sertifikatların verilməsini nəzərdə tutur. Bunlar ixrac edilən heyvanlara, heyvan mənşəli məhsullara və xammala beynəlxalq baytarlıq sertifikatı, bitki və bitkiçilik məhsullarının ixracına (təkrar ixracına) fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatı, Avropa İttifaqı ölkələrinə yeyinti məhsullarının ixracı üçün keyfiyyət sertifikatı, malın mənşə ölkəsini təsdiq edən sertifikat, kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin ixracı üçün icazə (sertifikatın), mədəni sərvətlərin ixracı üçün mühafizə şəhadətnaməsi, dini təyinatlı ədəbiyyatın (kağız və elektron daşıyıcılarda), audio və videomaterialların, malların (məmulatların) və dini məzmunlu başqa məlumat materiallarının ixracına razılıqdan ibarətdir».

Sahibkarlar həmçinin «Bir pəncərə» İxraca Dəstək Mərkəzindən müxtəlif sahələrdə məsləhətlər alır, «Azexport» portalı üzərindən ixrac imkanlarını genişləndirir və Rəqəmsal Ticarət Qovşağının elektron xidmətlərindən də yararlanırlar.

«Azexport» Azərbaycan məhsullarının dünyanın aparıcı elektron ticarət portallarında təqdim edilməsi istiqamətində fəaliyyətini davam etdirir. «Azexport»un Amazon-la əməkdaşlığı çərçivəsində «Fulfillment by Amazon» (FBA) xidməti indi azərbaycanlı iş adamlarına da əlçatan oldu. «Amazon» sahibkarlarımıza məhsullarını ABŞ-da yerləşən 100-dən artıq anbarda yerləşdirmə, saxlama, qablaşdırma və çatdırma xidməti təklif edir. «Azexport» bu xidmətlə bağlı maraqlı olan iş adamlarının müracitələrini qəbul edir.




**«Azexport» dünyada internet vasitəsilə satış əməliyyatlarını həyata keçirən ən irimiqyaslı «Amazon.com»dan əlavə, «Alibaba», «e-Bay» və «Allbiz» kimi iri portallara da inteqrasiya olunub**

**F.İKRAMQIZI**

# Kompensasiya ödənişini almaq üçün nələrə diqqət etməli?

«İcbari sığortalar haqqında» Qanuna əsasən, naməlum, oğurlanmış və ya icbari sığorta müqaviləsi olmayan avtonəqliyyat vasitəsi ilə törədilmiş yol-nəqliyyat hadisəsi nəticəsində sağlamlığına zərər dəymiş üçüncü şəxslər İcbari Sığorta Bürosundan kompensasiya ödənişini tələb etmək və almaq hüququna malik olan şəxslər hesab olunurlar. Hadisə nəticəsində şəxsin ölməsi halında bu hüquq onun ailə üzvlərinə keçir.

Kompensasiya ödənişini almaq üçün İcbari Sığorta Bürosuna müraciət etməyin başlıca şərti həmin ödənişin verilməsinə əsas olan hadisə barədə məhkəmənin qanuni qüvvəyə minmiş yekun qərarının olmasıdır. Digər mühüm şərt isə ondan ibarətdir ki, zərərçəkənin sağlamlığına vurulmuş zərərin əvəzi zərərvuran tərəfindən tam və ya qismən ödənilməmiş olsun.

***Dələduz vasitəçilərdən ehtiyatlı olun!***

İSB-dən bildirilir ki, büroya kompensasiya ödənişi ilə bağlı müraciət etmək və ödəniş edilməli halda onu almaq mürəkkəb proses deyildir. Bunun üçün qanunvericiliklə siyahısı müəyyən edilmiş sənədlərin toplanması və büroya təqdim edilməsi yetərlidir. Bunu zərərçəkmişin özü, ailə üzvləri, yaxud onun adından qanuni əsaslarla çıxış edən nümayəndəsi edə bilər. Bu və ya digər səbəblərdən vətəndaşlar büroya şəxsən müraciət etmədiyi hallarda bu işi peşəkar hüquq xidmətləri göstərən vasitəçilərə həvalə edə bilərlər. Tərəflər arasında yaranan mülki münasibətlər göstəriləcək xidmətlərə görə bütün şərtlərin, eləcə də ağlabatan məbləğdə müəyyən edilmiş xidmət haqqının aydın əks olunduğu və notarial qaydada təsdiqlənmiş müqavilə ilə rəsmiləşdirilməlidir. Çünki bəzi hallarda zərərçəkənlərin düşdüyü vəziyyətin həssaslığından, eləcə də onların məlumatlı olmamasından sui-istifadə edən, zərərçəkənə düşə biləcək kompensasiya ödənişinin bir hissəsini qanunsuz yolla mənimsəmək istəyən «vasitəçilər» peyda olur və vətəndaşları aldatmaq yolu ilə guya bürodan kompensasiyanın alınması prosesinin mürəkkəbliyini, hətta mümkünsüzlüyünü iddia edərək vətəndaşları onların adından vasitəçi kimi çıxış etməyə razı salırlar. Adətən, bu cür «vasitəçilər» vətəndaşın verdiyi etibarnamə əsasında hərəkət edirlər və tərəflər arasında münasibətləri tənzimləyən hər hansı hüquqi razılaşma və ya müqavilə mövcud olmur. Burada digər acınacaqlı məqam isə ondan ibarətdir ki, vasitəçiyə etibarnamə verərkən vətəndaşlar əksər hallarda etibarnamənin əhatə etdiyi hüquqların dairəsinə diqqət etməyərək tələb olunandan daha geniş səlahiyyətlər verən etibarnamə təqdim edirlər, bununla da vasitəçiyə təmsilçilik hüququ ilə yanaşı, özlərinin adından maliyyə əməliyyatları aparmaq hüququnu da ötürmüş olurlar.

***Ödənişlər yalnız bank hesabına və ya poçt vasitəsilə göndərilir***

İSB-dən bildirilmişdir ki, büro heç bir halda kompensasiya ödənişlərini vasitəçilərə ödəmir. Bütün ödənişlər yalnız zərərçəkənlərin və ya onların müraciət etmiş ailə üzvlərinin adına poçt vasitəsilə və ya bank hesabına göndərilir: «Vətəndaşlar bilməlidirlər ki, müqavilə ilə bərkidilməyən münasibətlər nəticədə vətəndaşa çatmalı olan kompensasiya ödənişinin müəyyən hissəsindən qanunsuz olaraq məhrum edilməsi ilə nəticələnə bilər. Belə ki, əgər zərərçəkənin adından çıxış edən vasitəçi müqavilə ilə deyil, etibarnamə üzrə hərəkət edirsə və etibarnamənin əhatə etdiyi hüquqların dairəsi yalnız təmsilçiliklə məhdudlaşdırılmamışdırsa, bu halda həmin şəxs etibarnaməyə uyğun olaraq zərərçəkənə çatacaq vəsaiti almaq və onun üzərində sərəncam vermək səlahiyyətinə də malik olur. Bir sıra hallarda vasitəçilər bundan sui-istifadə edərək dələduzluq edir və vətəndaşa çatacaq həmin vəsaitin əhəmiyyətli hissəsini mənimsəyir, zərərçəkənə isə özlərinin istəyinə görə bir məbləği verərək yalnız bu qədər kompensasiya ödənildiyini söyləyirlər. Zərərçəkənlər isə bunun fərqinə varmayaraq nəticədə özlərinin də xəbəri olmadan bu cür vasitəçilərin qurbanına çevrilmiş olurlar. Bu səbəbdən, vətəndaşlar vasitəçi ilə mülki münasibətlərini yalnız öncədən bağlanılan və notarial qaydada təsdiqlənmiş ikitərəfli müqavilə ilə rəsmiləşdirməlidir. Vətəndaşlar hər hansı səbəbdən kompensasiya ödənişi ilə bağlı Büroya şəxsən müraciət edə bilmədikdə, eləcə də vasitəçi ilə müqavilə bağlamaq mümkün olmadıqda, vasitəçiyə veriləcək etibarnamə ona yalnız zərərçəkəni Büro qarşısında təmsil etmək hüququ verməli, vasitəçiyə daha geniş səlahiyyətlər həvalə etməməlidir. Zərərçəkənlə vasitəçi arasında bağlanılan ikitərəfli müqavilə əsasında əməkdaşlıq isə bu kimi mənfi halları istisna edir, çünki bu zaman vasitəçinin zərərçəkənə ödənilən kompensasiyanı almaq imkanı olmur və ona yalnız öncədən razılaşdırılmış və müqavilədə qeyd olunmuş xidmət haqqı çatır. Həmçinin, etibarnamədən fərqli olaraq müqavilə tərəflər arasında mülki münasibətləri dəqiq müəyyən edir, eləcə də vasitəçinin zərərçəkənə göstərdiyi hüquqi xidmətlərin keyfiyyətinə dair sonradan yarana biləcək mübahisələrin hüquqi müstəvidə həlli üçün zəmin yaradır».

**Vətəndaşlar bilməlidirlər ki, müqavilə ilə bərkidilməyən münasibətlər nəticədə vətəndaşa çatmalı olan kompensasiya ödənişinin müəyyən hissəsindən qanunsuz olaraq məhrum edilməsi ilə nəticələnə bilər**

Büro bütün hallarda - istər zərərçəkənin özünün, ailə üzvlərinin, istərsə də onu təmsil edən vasitəçinin müraciət etməsi halında, tamamilə təmənnasız olaraq, müraciət etmiş şəxslərə kompensasiya ödənişinin alınması prosesi ilə bağlı lazımi dəstəyi və istiqamətləndirməni təmin edir.

***Bu məqamlara xüsusi diqqət yetirin***

Bəzi hallarda zərərçəkən ibtidai istintaq və ya məhkəmə araşdırması dövründə zərərvuran şəxsə qarşı ona dəymiş zərərlə bağlı hər hansı iddia qaldırmır və müvafiq olaraq rəsmi sənədlərdə də zərərçəkənin iddiasının olmaması əksini tapır. Lakin sonradan büroya kompensasiya ödənişi almaq üçün müraciət edən bu cür zərərçəkənlər və ya onların vasitəçiləri bilməlidirlər ki, bu hal onların kompensasiya ödənişi almasını əngəlləyə və ödənişin verilməsindən qanuni əsaslarla imtinaya səbəb ola bilər.

İSB bildirir ki, naməlum, oğurlanmış və ya icbari sığorta müqaviləsi olmayan avtonəqliyyat vasitəsinin səbəb olduğu yol-nəqliyyat hadisəsi nəticəsində sağlamlığa dəymiş zərərlə bağlı kompensasiya ödənişinin alınması üçün İcbari Sığorta Bürosuna müraciət edərkən bəzi vacib məqamları nəzərə almaq lazımdır. Belə ki, vətəndaşın kompensasiya ödənişi almaq üçün Büroya şəxsən müraciət etməyi daha məqsədəuyğundur. Əgər kompensasiya ödənişinin alınması prosesi ilə bağlı əlavə hüquqi xidmətlərin lazım olacağı qənaətinə gəlinərsə, bu zaman analoji xidmətləri təqdim edən vasitəçi ilə ünsiyyət qurmaq olar. Vasitəçi ilə mülki münasibətləri müqavilə ilə rəsmiləşdirmək lazımdır. Müqavilənin bütün şərtləri və vasitəçiyə ödəniləcək xidmət haqqını aydın əks etdirməsini və notarial qaydada təsdiqlənmiş olmasını tələb etmək lazımdır.

Hər hansı səbəbdən büroya şəxsən müraciət edə bilmədikdə, eləcə də vasitəçi ilə müqavilə bağlamaq mümkün olmadıqda, verilən etibarnaməni büro qarşısında yalnız şəxsi təmsil etmə hüququ ilə məhdudlaşdırmaq məqsəduyğundur. Çünki daha geniş səlahiyyətlər həvalə edən etibarnamə verməklə bəzi vasitəçilərin dələduzluq əməllərinin qurbanına çevrilə bilərlər. Büro tərəfindən verilən kompensasiya ödənişini şəxs özü qəbul etməli və hər hansı şəxsə bunu həvalə etməməlidir.

**AYTƏN**

# Manatın 25 yaşı tamam oldu

Milli pul vahidi olan manat 1992-ci il avqustun 15-də tədavülə buraxılıb. 1992-ci ilin avqustunda 1, 10 və 250 manatlıq əsginaslar, noyabrında 5, 10, 20 və 50 qəpiklik sikkələr, dekabrında 5 manatlıq əsginas, 1993-cü ilin martında isə 50, 100, 500 və 1000 manat nominallı kağız əsginaslar dövriyyəyə buraxılıb. Azərbaycan Respublikasının 1-ci pul emissiyası 1992-ci ildə Fransa Mərkəzi Bankı tərəfindən çap edilib.

1992-ci ilin avqustundan 1994-cü ilin yanvarınadək manat Azərbaycan ərazisində 1 manat : 10 rubl nisbətində rubllar ilə paralel olaraq dövriyyədə ödəniş vasitəsi kimi istifadə olunurdu.

Milli Bank tərəfindən ölkədə nağd pul dövriyyəsinin nizamlanması, nağd pula olan tələbatın optimallaşdırılması məqsədilə 1994-cü ildə 10.000 manatlıq, 1996-cı ildə isə 50.000 manatlıq əsginaslar çap etdirilərək dövriyyəyə buraxılıb.

1994-cü ildə Almaniyada «Giesecke & Devrient» şirkəti tərəfindən istehsal edilən 10.000 manatlıq əsginasın üzərində «Şirvanşahlar» kompleksinin ümumi görünüşü, arxa tərəfində isə ənənəvi olaraq milli ornamentlə haşiyələnmiş çərçivədə həm rəqəmlə, həm də söz ilə nominal verilmişdi.

İngiltərənin «De La Rue» şirkəti tərəfindən çap edilən 50.000 manat dəyərində əsginaslar 1996-cı ildən dövriyyəyə buraxılıb və bu pul vahidinin üzərində orijinal üslubda Naxçıvanda olan memarlıq abidəsi - «Mömünə Xatun türbəsi», arxa hissəsində isə ənənəvi olaraq milli ornamentlə haşiyələnmiş çərçivədə nominalın dəyəri həm rəqəmlə, həm də sözlə verilib.

İngiltərədə 2001-ci ildə «De La Rue» şirkəti tərəfindən yeni dizaynla 1000 manat dəyərində əsginas buraxılıb. Bu əsginas Azərbaycanda neftin çıxarılması və istehsal edilməsinə həsr edilib. Əsginasın dizaynında ənənəvi çərçivələr və ornamentlər istifadə edilib.

Ümumikdə, Azərbaycan Respublikasının Milli Bankı tərəfindən ölkə iqtisadiyyatının nağd pula olan tələbatının ödənilməsi məqsədilə 1992-2005-ci illər ərzində 5 trilyon 238 milyard manat həcmində 692,5 milyon ədəd əsginas istehsal olunaraq dövriyyəyə buraxılıb. Köhnə nominallı pul nişanları 2006-cı ilin sonuna qədər tədavüldə olub və denominasiya çərçivəsində dövriyyədən geri yığılıb.

Azərbaycan Respublikası Prezidenti tərəfindən 2005-ci il 7 fevral tarixdə «Azərbaycan Respublikasında pul nişanlarının nominal dəyərinin və qiymətlər miqyasının dəyişdirilməsi (denominasiyası) haqqında» Fərman imzalanıb. Fərmana uyğun olaraq, 2006-cı il yanvarın 1-dən etibarən yeni manata keçidlə əlaqədar 1 yeni manat AZN 5000 köhnə AZM-ə bərabər tutuldu. AZM və AZN-in birgə 1 il ərzində - 2006-cı ildə dövriyyədə oldu və yalnız 2007-ci il yanvarın 1-dən isə yeni manata tam keçid təmin edildi. Lakin AZM-lərin AZN-lərə dəyişdirilməsi prosesinə heç bir məhdudiyyət qoyulmadı və hazırda da bu proses xırda həcmdə olsa da davam edir.

Dövriyyəyə buraxılan yeni manat 1, 5, 10, 20, 50, 100 ekvivalentində olan əsginaslar və 1, 3, 5, 10, 20, 50 metal pul nişanlarından ibarət olub.

Yeni manatın dizaynı ilə bağlı müsabiqənin qalibi Avstriyanın «OeBS» şirkətinin dizayneri, avronun müəllifi Robert Kalina olub. Yeni nəsil pul nişanlarının texniki parametrləri isə İsveçrə Milli Bankının texniki dəstəyi ilə hazırlanıb.

## BİR CÜMLƏ - BİR XƏBƏR

Azərbaycanla Çin arasında kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub.

Qanunvericilikdə edilən dəyişikliklərə uyğun olaraq ipoteka girovluğunda olan əmlakın açıq bazarda satışı mümkün olacaq.

Kənd təsərrüfatında avqust ayının 1-nə kimi dənli və dənli paxlalı bitkilərin (qarğıdalısız) əkin sahəsinin 97,3 faizi, yaxud 915,7 min hektarı biçilib, həmin sahələrdən 2 milyon 628 min ton məhsul götürülüb .

Yanvar-iyul aylarında kimya sənayesi və əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində 437,1 milyon manatlıq məhsul istehsal edilib.

Avqustun 15-də Əmlak Məsələləri Dövlət Komitəsi (ƏMDK) tərəfindən keçirilən növbəti hərracda 17 dövlət əmlakından 6-sı kiçik dövlət müəssisəsi, 11-i istifadəsiz qeyri-yaşayış sahəsi olub.

Rusiyaya məxsus «AirBridgeCargo» yük aviaşirkəti Bakı-Honqkonq hava məkanından keçmək hüququ üçün yükdaşıma icazəsi alıb. Yük Moskva-Bakı-Honqkonq hava marşrutu ilə daşınacaq. Uçuşlar həftədə 4 dəfə həyata keçiriləcək.

## 2017-ci ilin avqust ayı ərzində vergi orqanına təqdim olunmalı bəyannamələr və ödənilməli VERGİLƏR

**2017-ci ilin iyul ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduğu**

- Əlavə dəyər vergisi bəyannaməsini,
- Aksiz bəyannaməsini,
- Yol vergisi bəyannaməsini,
- Mədən vergisi bəyannaməsini,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş vergi bəyannaməsini və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

**cari ilin avqust ayının 21-dən** gec olmayaraq vergiorqanına təqdim etməli və hesablanmış vergilər əmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- **Daşınmaz əmlakın təqdim edilməsi üzrə sadələşdirilmiş vergi bəyannaməsi cari ilin avqust ayının 21-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

**Vergilər avqust ayında ödənilir, bəyannamə** rüblük olaraq **oktyabrın 20-dən gec** olmayaraq təqdim edilir:

- Muzdlu işlə əlaqədar 2017-ci ilin iyul ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi **avqust ayının 21-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - növbəti ildə **yanvar ayının 31-dən** gec olmayaraq, digər vergi ödəyiciləri isə 3-cü rüb üzrə bəyannaməni cari ilin oktyabr ayının 20-dən gec olmayaraq təqdim edirlər).
- Xüsusi notariusların 2017-ci ilin iyul ayı üzrə hesabladığı gəlir vergisi cari ilin **avqust ayının 21-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (3-cü rüb üzrə bəyannamə cari ilin oktyabr ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edimədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Elektron imzadan yenilik var

Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə əməkdaşlığı genişləndirir. Artıq «Elektron hökumət» portalında (www.e-gov.az) yerləşən «Güzəştli mənzil» sistemi vasitəsilə qeydiyyatdan keçmək, həmçinin güzəştlə mənzil əldə etmək hüququ təsdiq olunduqdan sonra şəxsi elektron kabinetə daxil olmaq və həmin sistem vasitəsi ilə mənzil seçmək gücləndirilmiş elektron imza ilə mümkündür.

Nazirlikdən verilən məlumata görə, çoxsaylı müraciətləri nəzərə alaraq, güzəştli mənzil almaq istəyən vətəndaşların rahatlığını təmin etmək və əlavə vaxt itkisinin qarşısını almaq məqsədilə elektron imzanı (www.e-imza.az) ASAN xidmət mərkəzlərində MİDA-nın «Güzəştli mənzil» xidməti pəncərələrindən də sifariş edərək almaq imkanı yaradılıb.

Məlumat Hesablama Mərkəzi ilə birgə əməkdaşlıq çərçivəsində avqust ayının 3-dən «Elektron imza» sertifikatları Bakı şəhərindəki 1, 3, 5 saylı «ASAN xidmət» mərkəzlərindən və Sumqayıt «ASAN xidmət» mərkəzindən də əldə oluna bilər.

E-imzanın alınması üçün proses aşağıdakı ardıcıllıqla həyata keçirilir:

Vətəndaş yuxarıda qeyd olunmuş «ASAN xidmət» mərkəzlərindən birinə gələrək sənədlərini MİDA operatoruna təqdim edir;

Operator daxili prosedurları həyata keçirdikdən sonra «Elektron imza» üçün müraciəti formalaşdırıb Məlumat Hesablama Mərkəzinin Milli Sertifikat Xidməti Mərkəzinə (MSXM) göndərir;

MSXM ödənişin həyata keçirilməsi üçün sorğunu qəbul edir, bildiriş formalaşdırır və dərhal MİDA-ya qaytarır;

Operator yaradılan bildirişi çap edərək ödəməsi üçün vətəndaşa təqdim edir;

Vətəndaş ASAN xidmət mərkəzində fəaliyyət göstərən banka yaxınlaşaraq bildiriş nömrəsini təqdim etməklə ödənişi həyata keçirir;

Ödəniş edildikdən sonra elektron imza sertifikatı (token daşıyıcısında) istehsal edilir, paketlənərək təyin olunmuş vaxtlarda müvafiq xidmət məntəqələrinə çatdırılır;

Vətəndaş növbəti gün xidməti pəncərəyə yaxınlaşaraq e-imza sertifikatını əldə edə bilir.

Qeyd edək ki, «Güzəştli mənzil» sisteminə dair sualları cavablandırmaq, şəxsi elektron kabinetin yaradılmasında, həmçinin elektron imza sertifikatının alınmasında kömək göstərmək məqsədilə «ASAN xidmət» mərkəzlərində «Güzəştli mənzil» pəncərələri davamlı olaraq vətəndaşlara xidmət göstərəcək.

«Güzəştli mənzil» sistemindən elektron imza və ya «Asan imza» vasitəsi ilə istifadə vətəndaşların fərdi məlumatlarının mühafizəsini və «Elektron hökumət» portalında aparılan əməliyyatların dəqiq və təhlükəsiz həyata keçirilməsini təmin edir. E-imza sertikatına sahib olan vətəndaşlar «Güzəştli mənzil» sistemi ilə yanaşı, «Elektron hökumət» portalında təmsil olunan digər dövlət orqanlarının təqdim etdiyi xidmətlərdən də rahat şəkildə yararlana bilərlər.

> Çoxsaylı müraciətləri nəzərə alaraq, güzəştli mənzil almaq istəyən vətəndaşların rahatlığını təmin etmək və əlavə vaxt itkisinin qarşısını almaq məqsədilə elektron imzanı (www.e-imza.az) ASAN xidmət mərkəzlərində MİDA-nın «Güzəştli mənzil» xidməti pəncərələrindən də sifariş edərək almaq imkanı yaradılıb

**FƏXRİYYƏ**

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

Sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-fakturanın verilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Mövcud qanunvericiliyə əsasən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı

- **ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan** vergi ödəyiciləri tərəfindən **2017-ci il 1 aprel tarixindən;**
- **bütün digər vergi ödəyiciləri** tərəfindən **2018-ci il 1 yanvar tarixindən etibarən** elektron qaimə-faktura təqdim edilməlidir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura **«Onlayn rejimdə»** Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən Asan İmza) vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə edilməklə **«Oflayn rejimdə»** tərtib edildikdən və elektron imza (o cümlədən Asan İmza) vasitəsilə imzalandıqdan sonra alıcıya göndərilir.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturadan ən azı biri olmadıqda isə alıcıya təqvim ili ərzində belə hala

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi miqdarında** maliyyə sanksiyası tətbiq edilir.

Odur ki, qanunvericiliklə nəzərdə tutulmuş hallarda qeyd edilmiş müddətdən etibarən elektron qaimə-fakturanın tətbiqinə başlanılmalıdır. Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Azərbaycan Respublikası Vergilər Nazirliyi

# İndiyə qədər sahibkarlara 4 min 300-dən çox lisenziya verilib

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətinin məlumatına görə, verilmiş lisenziyaların 2450-dən çoxu yeni, 1871-i isə müddətsiz lisenziya ilə əvəz edilmiş lisenziyalardır.

Bu ilin əvvəlindən isə sahibkarlara 966 lisenziya verilib. Bunun 683-ü yeni verilib, 283 lisenziya isə müddətsiz lisenziya ilə əvəz edilib. Lisenziyalar əsasən əczaçılıq, özəl tibb, tikinti-quraşdırma işləri, tikintisinə icazə tələb olunan və barəsində məlumatlandırma icraatı tətbiq olunan bina və qurğuların layihələndirilməsi, baytarlıq preparatlarının satışı, bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin idxalı, maye və təbii qaz təsərrüfatı obyektlərinin quraşdırılması, dağ-mədən işləri, dağ və buruq qazmalarının aparılması, yanğından mühafizə, qaldırıcı qurğuların, metallurgiya avadanlığının, təzyiq altında işləyən qazanların, tutumların quraşdırılması və təmiri, təhlükəli yüklərin nəqliyyat vasitəsilə daşınması, təhsil və sair fəaliyyət sahələrinə verilib.

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

- Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
- Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
- Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
- Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

## Braziliyada vergi amnistiyası büdcəyə milyonlarla vəsait gətirib

Braziliyanın Vergi Xidmətinin açıqlamasında bildirilmişdir ki, ölkədə tətbiq edilən vergi amnistiyası qüvvədə olan müddət ərzində 4,6 milyard Braziliya realı (1,46 milyard ABŞ dolları) məbləğində xarici aktivlər barədə bəyannamə verilmişdir. Beləliklə, hökumətin açıqlamasına görə, vergi ödəmələrinin, eləcə də cərimələrin ümumi məbləği 1,6 milyard real (0,5 milyard dollar) təşkil etmişdir.

Braziliyada vergi amnistiyası 2017-ci il martın 3-dən iyulun 31-dək müəyyən edilmişdi, bu müddət ərzində bütün arzu edən rezidentlər proqramın şərtlərindən faydalana bilərdilər.

120-ci gündən sonra amnistiyadan istifadə edən şəxslər göstərilən dövr üçün gəlir vergisinin 15%-ni, eləcə də vergi amnistiyasının bütün iştirakçıları üçün şərtlərin bərabər olması naminə 135% cərimə ödəməli idilər.

## Yaponiya xarici səfərlərə vergi qoymaq niyyətindədir



Ölkənin turizm idarəsi yerli kurortlardan istifadə səviyyəsini artırmaq məqsədilə xaricə gedənlərdən vergi tutmaq imkanlarını nəzərdən keçirir.

İdarədən verilən rəsmi açıqlamada bildirilmişdir ki, belə bir variantın hazırlığı üzərində iş gedir, lakin həmin verginin tətbiq edilməsi halında həm vətəndaşlara, həm də ölkədən çıxan turistlərə şamil ediləcək.

Gözlənilir ki, verginin məbləği 1000 yen (9 ABŞ dolları) olacaq və hər il orta hesabla büdcəyə əlavə 217 milyon vəsait gəlməsinə şərait yaradacaq. Bununla belə, 2020-ci ildə Olimpiya oyunları ilə əlaqədar ölkəyə güclü turist axınının yaranacağı gözlənilir.

Bildirilmişdir ki, Kioto və Osaka şəhərlərinin rəhbərlikləri turistlərə görə yığımların artırılmasını dəstəkləyir və otel nömrələrinin qiymətinə əlavə edilmək şərtilə yaşayış üçün vergi tətbiq etməyi planlaşdırırlar.

## «Avroviziya-2018»: turistlərdən tutulan vergi müsabiqənin maliyyələşdirilməsinə yönəldiləcək

Lissabon şəhərinin meri rəhbəri olduğu şəhərdə turistlərdən tutulan verginin «Avroviziya-2018» mahnı müsabiqəsinin maliyyələşdirilməsi məqsədilə xərclənəcəyi barədə xəbəri təsdiqləmişdir. Xatırladaq ki, turizm vergisi Portuqaliyada keçən ildən tətbiq olunur.

Portuqaliya paytaxtının başçısı Fernando Madina «The Portugal News» nəşrinə müsahibəsində bildirmişdir ki, şəhərdə yaşayan hər qonaqdan turistlərdən 1 avro həcmində vergi mahnı müsabiqəsinin təşkil edilməsi üçün vəsaitlərin toplandığı hesaba daxil olacaq. Onun sözlərinə görə, son altı il ərzində Portuqaliyaya gələn əcnəbilərin sayı durmadan artmaqdadır. 2016-cı ildə turistlərdən ölkə xəzinəsinə 13,5 milyon avro vəsait daxil olmuşdur. Qiymətləndirmələrə əsasən, gələn il və ondan sonrakı illərdə ölkəyə daha çox qonaqlar gələcək, ona görə də hökumət dairələri əmindir ki, turistlərdən tutulan vergi hesabına «Avroviziya-2018» mahnı müsabiqəsini maliyyələşdirmək mümkün olacaq.

«Növbəti müsabiqənin Portuqaliyada keçiriləcəyindən çox məmnunuq. Biz öz üzərimizə düşən məsuliyyəti sona qədər dərk edirik, - müsabiqənin yayımı üçün cavabdeh olan RTR televiziya şirkətinin baş direktoru Qonsalo Reys demişdir. - Bu, bizim şəhərlərimizə, bütün ölkəmizə özünü beynəlxalq səviyyədə yaxşı tərəfdən tanıtmaq üçün yaranmış böyük fürsətdir». Q.Reys həmçinin bildirmişdir ki, «Avroviziya-2018» müsabiqəsinin büdcəsi son illərin ən qənaətli büdcəsidir.

## İsveçrə və Belçika vergi informasiyasını mübadilə edir

İsveçrənin Federal Şurası tərəfindən bildirilmişdir ki, Belçika ilə ikiqat verginin aradan qaldırılması barədə saziş çərçivəsində vergilərə dair informasiyaların mübadilə edilməsi üzrə normalar qüvvəyə minir. 2014-cü ilin aprelində imzalanmış əlavə sazişdə vergi informasiyalarının sorğu əsasında mübadiləsinə aid beynəlxalq standartlara uyğun olaraq administrativ yardım göstərilməsi barədə maddə olmuşdur.

Bundan əlavə, İsveçrə hökumətindən bildirilmişdir ki, əlavə saziş dividendlərin, faizlərin və royaltinin vergiyə cəlb edilməsi prosesini təkmilləşdirir. Sənəd dövlət pensiya fondları - vəsaitlərin mənbəyi üçün vergi güzəştləri nəzərdə tutur və firmalararası borclar üzrə faizlərin və müəyyən şirkətlərin ödədikləri dividendlərin vergiyə cəlb edilməsi mexanizminin səmərəli işləməsi mexanizmini tənzimləyir.

Federal Şura tərəfindən bildirilmişdir ki, vergi informasiyasının mübadiləsi İsveçrə və Belçika arasındakı möhkəm iqtisadi əlaqələri daha da gücləndirməlidir.

## Rusiyada ƏDV ilə bağlı qanun layihəsinə düzəlişlər hazırlanıb

Rusiya hökuməti ixracat əməliyyatları üçün əlavə dəyər vergisinin (ƏDV) tətbiqi qaydalarının dəqiqləşdirilməsi ilə bağlı qanun layihəsinə dəyişiklər hazırlamışdır. Nazirlər Kabinetinin rəsmi internet saytının məlumatına əsasən, düzəlişlərdə emal nəticəsində əmələ gələn malların, reeksport gömrük prosedurları çərçivəsində ölkədən aparılmış xarici mallardan istifadə edilməklə istehsal edilən (alınan) malların satışı üçün, eləcə də bu cür malların daşınması üçün müşayiətedici xidmətlərə ƏDV güzəştinin edilməsi (0% dərəcəsinin tətbiqi) təklif olunur. Qeyd edilmişdir ki, bu düzəlişlər prioritet hesab edilən «Beynəlxalq kooperasiyanın və ixracın inkişafı üzrə sistemli tədbirlər» layihəsinin həyata keçirilməsi məqsədilə hazırlanmışdır.

Rusiya Federasiyasının rabitə və kütləvi kommunikasiyalar naziri Nikolay Nikiforov özünün «Twitter» səhifəsində yazmışdır ki, nəzərdə tutulan düzəlişlər ölkədən «Rusiya poçtu» vasitəsilə ixrac edilən mallara da 0% dərəcə ilə ƏDV tətbiq etməyə imkan yaradacaq. «Bununla da «Rusiya poçtu» ixracat üçün gözəl bir vasitə formalaşdırır - gömrük orqanları ilə elektron sənədləşmə dövriyyəsi, üstəgəl 0% dərəcə ilə ƏDV. İndi hətta Rusiya Federasiyasının ən balaca kəndlərindən də «Rusiya poçtu» vasitəsilə dünyanın istənilən yeri ilə asan, sürətli və sərfəli ticarət etmək olar!»

Parlamentin aşağı palatası 2017-ci il aprelin 7-də ixracatçılar üçün ƏDV-nin sıfır dərəcə ilə tətbiqi imkanından imtina olunmasını təklif edən qanun layihəsini birinci oxunuşda qəbul etmişdi. Bu sənəd vergi ödəyicilərinə malların ixracı zamanı, eləcə də bu cür malların daşınması ilə bağlı vergi ödəyicisinin uçotda olduğu vergi orqanına sorğusu əsasında ƏDV-ni 0% dərəcə ilə tətbiq etməməyə hüquq verir. Bu, bir ildən az olmayan müddət ərzində vergi ödəyicisi tərəfindən həyata keçirildiyi göstərilmiş bütün əməliyyatlara aid edilir.

Qanun layihəsi beynəlxalq poçt daşımalarında xarici şəxslərə göndərilən malların satılması üzrə əməliyyatların həyata keçirilməsi zamanı ƏDV-nin 0% dərəcə ilə tətbiq edilməsinin əsaslı olduğunu təsdiq edən sənədlərin siyahısını müəyyənləşdirməyi də təklif etmişdir.

## Cənubi Koreya vergi sahəsində bir «ilk» gerçəkləşdirəcək

Cənubi Koreya hökuməti dünyada ilk dəfə olaraq «robotlara vergi» adlanan yeni vergi tətbiq edəcək. Bu addım insanları robotların əvəz etməsinin kütləvi işsizliyə yol açması barədə ictimai rəydə formalaşmış qorxu fonunda atılmışdır. Ölkədə bu yaxınlarda ictimaiyyətə açıqlanmış vergi qanunvericiliyinə yenidən baxmaq təklifi çərçivəsində robot texnologiyası üçün müəyyənləşdirilmiş güzəştlərin məhdudlaşdırılacağı gözlənilir.

Belə hesab edilir ki, «robotlara vergi» insanların əvəzinə maşınların işləyəcəyi şəraitdə gəlir vergisi üzrə itirilmiş məbləği kompensasiya edə, eləcə də işsizliyin gözlənilən artımı ərəfəsində sosial xəzinənin doldurulmasına yardımçı ola bilər. «Korea Times» qəzetinin yazdığına görə, Cənubi Koreya hökuməti əvvəllər məhsuldarlığın artırılması məqsədilə tətbiq edilmiş avtomatlaşdırma üçün qoyulan sərmayəyə vergi güzəştlərini məhdudlaşdıracağını elan etmişdir. «Robotlara vergi» ilə bağlı təklif bu ilin sonundan qüvvəyə minə bilər: həmin vaxt hazırda mövcud olan vergi qanunvericiliyinin müddəti başa çatır.

«Söhbət robotlara qoyulan birbaşa vergilərdən getmir, lakin hökumətin belə bir addımı atması bir problemin - sənayenin avtomatlaşdırılması probleminin həllinə yönəldildiyinə görə bu cür yozula bilər», - «Korea Times» qəzeti yazmışdır.

## İrlandiya hökuməti kapital vergisi ilə bağlı məsələyə aydınlıq gətirib

Ölkənin Baş naziri Leo Vardikar demişdir ki, hökumətin faktiki olaraq fiziki şəxslərin yaşadıqları evlərin satışından əldə olunan kapitala vergi tətbiq etmək planı yoxdur. Hazırda qüvvədə olan qanuna əsasən, fiziki şəxslərin əsas yaşayış yeri gəlir vergisinin ödənilməsindən azad edilir.

Hökumət rəhbərinin bu açıqlaması İrlandiya ictimaiyyətinin maliyyə naziri tərəfindən verilmiş xəbərlərə görə narahatlığı fonunda verilmişdir. Gələn maliyyə ilinin büdcəsinin hazırlanması prosesinin gedişində Maliyyə Nazirliyi rəsmiləri bildirmişdilər ki, ilkin yaşayış yerinin qiyməti üçün maksimum həddi tətbiq ediləcəyi mümkündür, belə bir addımın atılmasından sonra isə əmlak sahibləri öz yaşayış yerlərinin satışı zamanı kapital vergisi ödəməli olacaqlar.

Açıqlanmış sənədlərdə göstərilir: «Hər bir məhdudiyyətin və güzəştin strukturundan asılı olaraq nəzərdən keçirilmiş bütün yanaşmaların üstünlükləri və çatışmazlıqları var».

## krossvord



**Yuxarıdan aşağı:** 1.Qırqovullar fəsiləsinə aid quş cinsi; 2.Ukrayna əsilli Azərbaycan voleybolçusunun adı; 3.Hər hansı məsələni müzakirə etmək üçün təşkilat üzvlərinin bir yerə yığılması; 4.Yalnız özünü bəyənən, yüksək tutan, daim öz mənafeyini düşünən şəxs; 5.Yunanıstanın paytaxtı; 6.Maqnezium-dəmir tərkibli, sarı-yaşıl rəngdə silikat (mineral). Zinət əşyalarının istehsalında qiymətli daş kimi istifadə olunur; 9.Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professorun adı; 13.Qədim Misir mifologiyasında axirət dünyası; 15.Amerikan mənşəli top oyunu; 16.Məşhur italyan uşaq yazıçısı və jurnalistin soyadı. «Çippolinonun macəraları» əsərinin müəllifi; 17.ABŞ-ın Texas ştatında şəhər; 18.Respublikamızda rayon; 20.Qadın adı. Antik mifologiyada və bəzi ibtidai dinlərdə qadın cinsli mifik varlıq; 21.Yayın axırında qırxılan qoyun yunu. **Soldan sağa:** 1.Vokal və ya instrumental melodiya; 5.Danışıq vaxtı telefon dəstəyi ələ götürüldükdə söylənilən ilk söz; 7.Fransa mənşəli bal rəqsi; 8.Sakit okeanın cənub hissəsində yerləşən ada-dövlət; 10.Bankın və ya sahibkarın borc iltizamlarını vaxtında ödəyə bilməməsi nəticəsində fəaliyyət göstərə bilməməsi; 11.Gürcüstanın şərqində dağ ətəyində yerləşən, turistlər arasında populyar olan tarixi qəsr və eyniadlı şəhərcik; 12.Mədaxil ilə məxaric arasındakı fərq, qalıq; 14.İttiham olunan şəxsin cinayət əməlində iştirakının olmadığını sübut edən anlayış, hüquqi termin; 19.Yaponiyada prefektura; 21.Azərbaycanın tarixi ərazisi olan Zəngəzurun ən iri göllərindən biri, qədim mahal. Aşıq Ələsgərin ana yurdu; 22.Respublikamızda coğrafi bölgə; 23.Böyük Britaniya kraliçası; 24.Azərbaycan dilində bağlayıcı; 25.Proqramlaşdırma dili.



*Gürcüstanın şərqində dağ ətəyində yerləşən, turistlər arasında populyar olan tarixi qəsr və eyniadlı şəhərcik*

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Kunq-Fu; 2.Armadil; 3.İlzna; 4.Orator; 5.Malta; 6.Astara; 9.Atay; 13.Atos; 15.Auditor; 16.Qambit; 17.Siqnal; 18.Ftorid; 20.Ayran; 21.Kredo. **Soldan sağa:** 1.Klavikord; 5.MBA; 7.Numizmat; 8.Elat; 10.Fedra; 11.Oktyabr *(rayonu)*; 12.İlham; 14.Aymak ; 19.Anatoli *(Banişevski)*; 21.Kadet; 22.Borc; 23.İnventar; 24.Ton; 25.Volqoqrad.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 15000

idman

# Dünya çempionatında iştirak edəcək milli komandalarımızın heyətləri açıqlanıb

Avqustun 21-dən 26-dək Fransanın paytaxtı Paris şəhərində güləş üzrə dünya çempionatı keçiriləcək. Artıq mundialda çıxış edəcək sərbəst və yunan-Roma güləşi üzrə milli komandalarımızın heyətləri məlumdur.

Yığma komandaların Olimpiya Güləş Mərkəzində baş tutan mətbuat üçün açıq məşqində Azərbaycan Güləş Federasiyasının vitse-prezidentləri Elçin Cəfərov və Namiq Abdullayevin iştirakı ilə dünya çempionatına yollanacaq komandaların heyəti açıqlanıb.

Yarışların ilk iki günündə mübarizə aparacaq yunan-Roma güləşi üzrə seçməmizin heyəti Taleh Məmmədov (59 kq), Kamran Məmmədov (66 kq), Rəsul Çunayev (71 kq), Həsən Əliyev (75 kq), Elvin Mürsəliyev (80 kq), İslam Abbasov (85 kq), Orxan Nuriyev (98 kq) və Sabah Şəriətidən (130 kq) ibarət olacaq. Yığmamız baş məşqçi Şaban Donat, böyük məşqçi Akif Əliyev, məşqçilər Nurəddin Rəcəbovun rəhbərliyi altında mübarizə aparacaq.

Dünya çempionatında sərbəst güləş yarışlarında ölkəmizin idman şərəfini Mahir Əmiraslanov (57 kq), Hacı Əliyev (61 kq), Ağahüseyn Mustafayev (65 kq), Hacımurad Ömərov (70 kq), Cəbrayıl Həsənov (74 kq), Aleksandr Qostiyev (86 kq) və Aslanbek Alborov (97 kq) qoruyacaq. 125 kq çəkidə mübarizə aparan Cəmaləddin Məhəmmədov zədəli olduğundan çempionatda iştirak etməyəcək. Yığmamıza baş məşqçi Firdovsi Umudov, böyük məşqçi Zəlimxan Hüseynov və məşqçi Arif Abdullayev rəhbərlik edəcək.

Dünya çempionatı 21-26 avqust tarixlərində Parisdə baş tutacaq.

Proqrama əsasən, 21-22 avqustda yunan-Roma, 23-24 avqustda qadın güləşçilər arasında qaliblər müəyyənləşəcək. Sərbəst güləşçilər isə avqustun 25-26-da xalça üzərinə çıxacaq.

Daha sonra mətbuat nümayəndələri üçün brifinq keçirilib. Azərbaycan Güləş Federasiyasının vitse-prezidenti, Olimpiya çempionu Namiq Abdullayev güləşçilərimizdən yüksək əyarlı medallar gözlədiklərini bildirib: «Hazırlıqlar yüksək səviyyədə keçib. Komanda üzvlərinin əhval-ruhiyyəsi yaxşıdır. Ümid edirəm ki, hər zaman olduğu kimi güləşçilərimiz yüksək əyarlı medallar qazanacaqlar. Bunun üçün hər cür şərait yaradılıb. Güləşçilər də məşqlərdə səylə çalışıblar. İnanıram ki, bunun bəhrəsini görəcəklər.»

Azərbaycan Güləş Federasiyasının vitse-prezidenti Elçin Cəfərov hər iki komandada hazırlıqların yüksək səviyyədə davam etdiyini deyib: «Hər iki yığma komandada vəziyyət yüksək səviyyədədir. Hamımız ölkəmizi təmsil edəcək güləşçilərdən yüksək nəticələr gözləyirik. Əhval-ruhiyyə də çox yüksəkdir. Hər bir komandadan 2-3 medal gözləyirik. Bu da ümumi komanda hesabında ilk «5-liy»ə düşmə şansı verir. İnanıram ki, güləşçilərimiz və məşqçilər korpusu bu işin öhdəsindən gələcəklər.»

Sərbəst güləş üzrə yığma komandanın baş məşqçisi Firdovsi Umudov il ərzində yaxşı hazırlıq keçdiklərini və Dünya çempionatından sürprizlər gözlədiklərini bildirib: «Komandamız ilin əvvəlində Avropa çempionatında, Dünya Kuboku və IV İslam Həmrəyliyi Oyunlarında uğurlu çıxış etdi. Kislovodskda Olimpiya İdman Bazasında, Dağıstanda və Bakıda təlim-məşq toplanışları keçirdik. Məşq proseslərimiz hər zaman yüksək səviyyədə təşkil olunub. Dövlətimiz, Azərbaycan Güləş Federasiyası tərəfindən hər cür şərait yaradılıb. AGF-nin bazası dünyada ən yaxşılardandır. Bu gün də hazırlığımızı burada davam etdiririk. Güləşçilərimiz il ərzində bazada qida və yataq yerləri ilə təmin olunublar. Qalanı idmançılarımızın öhdəsinə qalır. İnanıram ki, güləşçilərimiz qarşıdan gələn yarışlarda da uğurla çıxış edəcəklər. Hədəfimiz bayrağımızı qaldırıb, himnimizi səsləndirməkdir».

# Azərbaycanlı idmançı Londonda yüngül atletika üzrə dünya çempionu

Böyük Britaniyanın paytaxtı Londonda keçirilən atletika üzrə dünya çempionatının 7-ci günü azərbaycanlı atlet Ramil Quliyevin uğuru ilə əlamətdar olub. 2011-ci ildə ölkəmizi tərk edən və 2013-cü ildən Türkiyə yığmasının şərəfini qoruyan sprinter 200 metr məsafəyə qaçışda fərqlənib. O, bütün rəqiblərini arxada qoyaraq tarixi uğura imza atıb. Məsafəni 20,09 saniyəyə qət edən həmyerlimiz ən yaxın izləyicilərini 0,02 saniyə qabaqlayıb.




Türkiyə idmanı tarixinə atletika üzrə ilk dünya çempionu kimi düşən Ramil Quliyev həm də bunu bacaran yeganə azərbaycanlı olub. Qızıl medal qazanan həmyerlimiz çempion tituluna yiyələndikdən sonra stadionda Azərbaycan və Türkiyə bayraqları ilə dövrə vurub.

Azərbaycan bayrağına bürünən Ramil təmsil etdiyi ölkənin rəmzini də əllərinə saxlayıb.

# İki güləşçimiz reytinqdə ilk sırada

Dünya Güləş Birliyi gələn həftə start götürəcək dünya çempionatı öncəsi güləş üzrə yeni reytinq siyahısını açıqlayıb. Azərbaycan Güləş Federasiyasından verilən xəbərə görə, ilk onluqda ümumilikdə 19 pəhləvanımızın adı var.

Sərbəst güləşçilərin siyahısında Georgi Edişeraşvili (57 kq), yunan-Roma güləşçilərinin siyahısında Rəsul Çunayev (71 kq) öz çəkilərində ilk sırada qərarlaşıb. Sərbəst güləşçilərimizdən Mahir Əmiraslanov, Hacı Əliyev, Qalib Əliyev, Cəbrayıl Həsənov, Murad Süleymanov, Aleksandr Qostiyev, Aslanbek Alborov və Cəmaləddin Məhəmmədovun adı ilk onluğa daxil edilib.

Qadın güləşçilərdən Mariya Stadnik, Nataliya Sinişin, Alyona Kolesnik və Tatyana Omelçenko onluqda yer alıb. Yunan-Roma güləşçilərinin onluğunda isə Elvin Mürsəliyev, Rafiq Hüseynov, İslam Abbasov, Orxan Nuriyev və Sabah Şəriətinin adlarını görmək mümkündür.




mozaika

evdə lazım olar

## Təbii balı saxta baldan necə ayırd etmək olar?



Sənayeləşmə o qədər inkişaf edib ki, hazırda təmiz balla saxta balı bir-birindən ayırmaq çətin olur. Balın tərkibinə daxil olan qlükoza, fruktoza, qalaktoza və s. kimi karbohidratlar sintetik üsullarla alınaraq şəkər tozundan hazırlanmış şərbətə qarışdırılır və saxta bal hazırlanır. Saxta bal adi şəkər tozundan bişirilmiş qatı şərbətdir, burada təbii bitki nektarından söhbət gedə bilməz. Zahirən təbii bala bənzəsə də, orqanizm üçün çox ziyanlıdır, daim istifadə edəndə şəkər xəstəliyinə səbəb olur.

Balı tanımaq üçün bir neçə üsuldan istifadə etmək olar. Məsələn, balı qaşıqla götürəndə nazik tellərin dartılaraq tez qırılması və qırılan kimi sürətlə dartılması onun keyfiyyətsizliyinin əlamətidir. Keyfiyyətli balın qoxusu burunu qıcıqlandırmadığı halda saxta bala qarışmış sintetik esens ətirlərində bunun tam əksi müşahidə olunur.

Bir qaşıq bal bir stəkana qoyularaq üzərinə qaynar su töküləndə keyfiyyətli bal tez dağılmır, suya tez qarışmır, saxta bal isə əksinə suya tez qarışır.

Saxta bal dartılanda hörümçək toru kimi havada uçur. Qaşıqla yuxarı qaldırıb axıdanda saxta bal qırıq-qırıq, təbii bal isə davamsız olaraq qırılmadan axır. Bundan başqa, təbii balla şərbət hazırlananda bulanıqlıq verir, saxta bal isə şəffaf olur.

maraqlı

## Təsərrüfat sahələrini qorumaq üçün robot canavar

Yaponiya fermerləri vəhşi heyvanları qorxutmaq üçün canavar şəklində robot yaradıblar. Ulayan robot canavar Yaponiyanın kənd təsərrüfatı sahələrini vəhşi heyvanlardan qoruyacaq. Aparatın qalın xəzi, qorxunc gözləri, həmçinin süni dişləri var. Robotun ölçüləri yaşlı canavara uyğun gəlir. Belə ki, uzunluğu 65 santimetrə, hündürlüyü isə 50 santimetrə çatır. Robot canavar, həmçinin güllə və insan səslərini təqlid edə bilir.

Robotun ilk nüsxəsi artıq sınaqdan keçirilib. Qeyri-adi robotun bazar qiyməti təxminən 200 min yen təşkil edəcək.



texnologiya

## «Sınmış» ürəklər üçün bioloji yapışqan

Amerikalı alimlərin hazırladıqları bu maddə elm üçün maraqlı tapıntıdır. Yaş səthlərə asanlıqla yapışan bu biomaddə nəinki zədələnmiş ürək əzələsini, həm də digər insan orqanizminin toxumalarını birləşdirmə bacarığına malikdir.

Alimlərin sözlərinə görə, adi ilbizdən alınan maddə əsasında hazırlanan yapışqan yaraların müalicəsi və cərrahiyyə əməliyyatlarının aparılmasında istifadə oluna bilər. Yapışdırıcı səth və hidrogel təbəqələrindən ibarət olan bu tibbi yapışqan zədələnmiş toxumaların üzərinə adi plastır kimi qoyulur.

Yüksək möhkəmliyə malik bioyapışqan bükülmə və dartılma kimi hərəkətlərə davam gətirə bilir.

Elmi araşdırmalar göstərib ki, yeni yapışqanın istifadəsi zamanı heç bir yan təsir müşahidə olunmur.

təbiət

## Yaradıcı başlanğıcın rəmzi

Qədim Misirdə lotos müqəddəs sayılırdı. Günəş tanrısı Ranın lotosdan dünyaya gəldiyinə inanırdılar, məhsuldarlıq ilahəsi İsidanın tacı lotos gülündən idi, dirilik tanrısı Osiris lotos yarpağı, işıq tanrısı Qor isə lotos çiçəyinin üstündə oturmuş vəziyyətdə təsvir edilirdi. Lotos həyat mənbəyi, yaradıcı başlanğıc, mənəvi dünya və mirvarini təmsil edirdi.

Ölçüsü 25 santimetrdən böyük olan çiçəklərin ömrü cəmi dörd gündür. Onun bəzi növləri gecə ay işığında açılır, daha sonra səbətşəkilli toxumları yaranır, suya üzü üstə düşən toxum səbəti üzür, içindəki toxumlar bir-bir suya tökülərək dibə batır və yeni lotos cücərməyə başlayır.

Hazırda Cənubi Avropada bitən lotoslar Şimali Amerikadan gətirilir. Əfsanəvi gözəlliyə malik çiçəyi çox vaxt onunla sadəcə zahiri bənzərliyi və suda bitməyindən başqa oturaq heç bir nöqtəsi olmayan su zanbağı ilə qarışdırırlar.

Neftçala rayonun Xolqarabucaq kəndinin ərazisindən keçən Akkuşa çayının sahilində suyun durğun yerində bitən şanagüllə lotosun bir növüdür. Ölkəmizdə yeganə olaraq yalnız burada bitən bitki maydan avqusta qədər çiçək açır. Onun toxumları və kökümsovu yeyilir, başağrısı zamanı toxumlarından ağrıkəsici kimi istifadə olunur. Dünyanın müxtəlif ölkələrində durğun su hövzələrində geniş yayılıb. Haqqında özü qədər gözəl əfsanələr dolaşan çiçəyin adı təəssüf ki, «Qırmızı kitab»a düşüb. Lakin onun nəslinin kəsiləcəyi o qədər də real görünmür, çünki alimlər şanagüllərin min illik toxumlarını əkib və onların cücərdiyinin şahidi olublar.



faydalı

## Tərləməyə qarşı üsullar

Yay fəslinin isti günlərində ən çox narahatlıq doğuran məsələlərdən biri də tərləmədir. İsti havada tərləmə tər vəzilərinin normal funksiyası olsa da, bəzi hallarda hədsiz tərləmə nəticəsində bədəndən xoşagəlməz qoxu gəlir. Bir sıra hallarda isə tərləməni hansısa xəstəliyin əlaməti hesab edirlər.

Xalq təbabətində tərləməyə qarşı bir sıra üsullardan istifadə edirlər:

- 1 stəkan xırdalanmış palıd qabığının üzərinə 0,5 litr su əlavə edilərək 10 dəqiqə qaynadılır, alınan maye ilə tərləyən nahiyələr vanna edilir. Bu məqsədlə şam və fındıq ağaclarının yarpağından, qara gəndalaşın çiçək və meyvəsindən də istifadə etmək olar.
- Qara çaydan hazırlanmış tünd dəmləmə ilə gecələr vanna qəbul edilir.
- Tərləyən nahiyələri növbəli şəkildə gah sərin, gah da isti suya salıb 30-60 saniyə saxlamaqla tərləmənin qarşısı alınır.
- 6 xörək qaşığı aptek çobanyastığı çiçəkləri üzərinə 2 litr qaynar su əlavə edilərək 1 saat dəmə qoyulur. Hər gün axşam yatmazdan qabaq tərləyən ətraflar alınan dəmləmə ilə vanna edilir.
- Hər gün səhər tezdən təmiz və quru qoltuqaltı nahiyələrə çay ağacının yağı sürtülür və 5 dəqiqədən sonra yağ salfetlərə hopdurulur.
- Hər gün yatmazdan əvvəl tərləyən nahiyələri salisil-sink pastaları (Lassar pastası) ilə silmək olar.
- 1 çay qaşığı duz 1 stəkan isti su ilə qarışdırılır və gündə iki dəfə tərləyən nahiyələr alınan məhlulla yaxalanır.
- 2 xörək qaşığı xırdalanmış sincanotu kökümsovunun üzərinə 1 stəkan qaynar su əlavə edilərək 30 dəqiqə dəmlənir. Alınan dəmləmə ilə vanna qəbul etmək və ya islatma şəklində tərləyən nahiyələrə qoymaq olar.
- Tərləyən nahiyələr, xüsusilə ayaqlar sərin su ilə yuyulur, tam qurudulur, sonra ayaq barmaqlarının arasına tozağacı yarpaqları qoyularaq müəyyən müddət saxlanılır. Yarpaqlar gündə iki dəfə yeniləri ilə əvəz edilir.
- Tozağacı bitkisindən hazırlanmış qətranlı sabunlar da tərləmə əleyhinə səmərəli təsir göstərir.

**Müdriklər deyib ki...**

*«Şans, bəxt və qismət onlardan faydalananlar üçün vardır».*

*Saqib Sabançı (1933-2004)*

